QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 188 (5419) 17 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Cenevrədə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilib



Səh → 2

## Azərbaycan və Ermənistan xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat veriblər



Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat veriblər. Bu barədə AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bəyanatda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan Cenevrədə zirvə görüşü keçiriblər. ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endrü Şoferin (Amerika Birləşmiş Ştatları) himayəsi altında keçirilən görüşdə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan iştirak ediblər. Zirvə görüşünə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də qatılıb. Görüş konstruktiv mühitdə keçib. Prezidentlər danışıqlar prosesini intensivləşdirmək üçün tədbirlər görməyə və təmas xətti boyunca gərginliyi azaltmaq üçün əlavə addımlar atmağa razılaşıblar...


Yeni Azərbaycan Partiyası 25 illik şərəfli tarixi yolda



→ 8

Bakıda Ümumdünya Ərzaq Gününə həsr edilən tədbir keçirilib



→ 4

Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib



→ 5

Türkiyə hökumətinin biganəliyi Azərbaycan ictimaiyyətini ciddi narahat edir



→ 6

Rusiyanın Ermənistana silah satması bölgədəki vəziyyətə müsbət təsir edə bilməz



→ 6

YAP Qubadlı rayon təşkilatının VIII konfransı keçirilib



5

→ 12
Demokratiya pərdəsi altında riyakarlıq!



→ 14
Elşən Musayev: "Əli Kərimlinin türmədən savayı gedəcəyi yer qalmayıb"



→ 16
Robert Prosinečki: "AFFA ilə məsələni həll etməliyəm"



# Cenevrədə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilib





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin Cenevrədə təşkil edilmiş görüşünə gəlib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, oktyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Prezidenti Serj Sarkisyan arasında görüş keçirilib. Görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi iştirak ediblər.***

***

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına səferi başa çatıb.

# Yol infrastrukturu strategiyası - uğurlu layihələr, bariz reallıqlar

*İlham Əliyev: "Yol infrastrukturuna görə Azərbaycan indi dünya miqyasında qabaqcıl yerdədir"*



**Güclü iqtisadiyyat güclü, rəqabətədavamlı və keyfiyyətli istehsaldan başlayır. Bu baxımdan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illərdə sürətlə inkişaf edən respublikamız dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Son 14 ildə dövlət başçısının uğurla həyata keçirdiyi siyasət Azərbaycanı regionda ən sürətlə inkişaf edən və məqsədlərinə doğru inamla irəliləyən dövlət kimi tanınıb.**

Xüsusilə, son illər yüksəlməkdə olan iqtisadiyyat, gündən-günə abadlaşan, müasirləşən paytaxt və bölgələrimiz, yeniləşən infrastruktur Azərbaycanın reallıqlarıdır. Dövlət başçısı İlham Əliyevin regionlara müntəzəm səfərləri şəhər və kəndlərimizin ildən-ilə abadlaşmasına, sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir.

"Azərbaycanın hərtərəfli yüksəlişi elə olmalıdır ki, təkcə ölkəmizin paytaxtı yox, bütün şəhərlər, bütün rayonlar inkişaf etsin." Dövlət başçısı İlham Əliyevin söylədiyi proqram xarakterli bu tezis bu günün reallıqlarında öz əksini tapıb.

Azərbaycan Prezidenti İlham Əliyev əminliklə bildirir ki, bu gün Azərbaycan həm siyasi, həm iqtisadi cəhətdən müstəqil, azad, öz resurslarına güvənən ölkədir. İqtisadi potensialın gücləndirilməsinə yönəldilmiş addımlar, eyni zamanda, Azərbaycanın müstəqilliyini möhkəmləndirən amillərdir.

## Ölkə başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan addımdır

Dövlət başçısının bölgələrə səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir.

Prezident İlham Əliyevin bölgələrə səfərləri, bir daha göstərdi ki, regionların inkişafı hər zaman dövlət başçısının diqqətindədir. Son on dörd ildə əldə olunan uğurlara diqqət yetirsək, görərik ki, Azərbaycanda heç vaxt qısa zaman ərzində bu qədər iş görülməyib. Xüsusilə, infrastruktur layihələrinin reallaşdırılması, ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər hər zaman dövlət başçısının diqqət mərkəzində olub və həmin siyasət sayəsində ölkəmizdə son 6 ay ərzində iqtisadiyyatda 1,7 faiz artım qeydə alınıb, qeyri-neft sektorunda 4,4 faiz, kənd təsərrüfatı sahəsində 2 faiz artım mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət sayəsində bu gün Azərbaycanın regionlarında yol infrastrukturu yenilənib, su, qaz və elektrik enerjisi təminatı xeyli yaxşılaşdırılıb. Bütün bunlar, təbii ki, regionların inkişafına olan diqqətin real ifadəsidir.

## Yeniləşən və müasirləşən yol infrastrukturu

Azərbaycanda yol infrastrukturunun inkişafı bu gün ölkənin əsas prioritetlərindən birinə çevrilib. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində qazanılan uğurların sırasında bu sahənin inkişafı xüsusi yer tutur. Ona görə də, yol təsərrüfatına göstərilən yüksək qayğı sözügedən sahədə daha böyük uğurların əldə olunmasına zəmin yaradır. Ümumiyyətlə, insanların rahat və maneəsiz şəkildə gediş-gəlişini təmin etmək, yükdaşımaları asanlaşdırmaq məqsədilə təkcə ötən il ərzində yol infrastrukturunun yenidən qurulması ilə bağlı ölkə Prezidenti tərəfindən 48 Sərəncam imzalanıb. Bu Sərəncamlarla nəzərdə tutulan layihələrin icrası 2 milyon əhalinin yaşadığı 356 yaşayış məntəqəsini birləşdirən 900 kilometr avtomobil yolunu əhatə edib. Cari ilin ötən aylarında da bu istiqamətdə tədbirlər davam etdirilib və daha 40 kəndlərarası və qəsəbələrarası avtomobil yollarının tikintisi ilə bağlı Sərəncam verilib.

Dövlətimizin başçısı ölkədə həyata keçirilən yol-infrastruktur layihələrinin əhəmiyyətini vurğulayaraq deyib: "Bu il 40 kənd yolu layihəsi icra edilməlidir. Bu layihələrin icrası yüzlərlə kəndin yol təsərrüfatını yaxşılaşdıracaq və əlbəttə ki, həm insanlara rahatlıq verəcək, eyni zamanda, iqtisadi inkişaf üçün də bunun böyük müsbət təsiri olacaq. Keçən il də kənd yolları layihələri uğurla icra edilmişdir. Bu il bu proses davam etdiriləcək. Əminəm ki, yaxın gələcəkdə bir dənə də olsun təmirsiz kənd yolu qalmayacaq".

## Uğurlu layihələr, mövcud reallıqlar

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev İsmayıllı rayonuna səfəri çərçivəsində çox önəmli bir çox obyektlərin açılışını etməklə yanaşı, bir çox sərəncamlar da imzalayıb. Belə ki, Prezident İlham Əliyev İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamla İsmayıllı rayonunun Lahıc qəsəbəsində 400 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə 3,5 milyon (üç milyon beş yüz min) manat ayrılıb. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.



Prezident İlham Əliyev bundan başqa, Şamaxı rayonunun Dəmirçi kəndini İsmayıllı rayonunun Lahıc qəsəbəsi ilə birləşdirən Dəmirçi-Lahıc Avtomobil Yolunun tikintisi ilə bağlı tədbirlər haqqında da Sərəncam imzalayıb. Sərəncamla Şamaxı rayonunun Dəmirçi kəndini İsmayıllı rayonunun Lahıc qəsəbəsi ilə birləşdirən, ümumi uzunluğu 22 kilometr olan Dəmirçi-Lahıc Avtomobil Yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılıb. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutacaq. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## Lahıca qaz xətti çəkiləcək - Prezidentdən tapşırıq

Azərbaycan Prezidenti İlham Əliyev İsmayıllı rayonunun Lahıc qəsəbəsinə qaz xətti çəkilməsi ilə bağlı Sərəncam imzalayıb. Dövlət Neft Şirkətinə İsmayıllı rayonunun Lahıc qəsəbəsinə qazlaşdırılmanı təmin etmək tapşırılıb.

Dövlət başçısı, onu da bildirib ki, yol olan yerdə inkişaf da olur: "Bu, doğrudan da, çox əlamətdar hadisədir. Yol olan yerdə inkişaf da olur. İndi həm sərmayə qoyuluşu, həm kənd təsərrüfatının inkişafı yol infrastrukturuna bağlıdır. Çünki yol həm insanlar üçün xidmət edir, gediş-gəliş asanlaşır, eyni zamanda, sizin məhsulunuz da bazarlara tez bir zamanda çatdırılır, itki də olmur. Yol kənd təsərrüfatı ilə məşğul olmaq üçün də əlavə imkanlar yaradır. Ona görə, yol həm sosial, həm iqtisadi layihədir. Ölkəmizdə yol layihələrinə çox böyük diqqət verilir. Demək olar ki, indi bütün magistral yollarımızda ən müasir səviyyə yaradılıbdır".

Bir sözlə, bütün bunlar, onu göstərir ki, zəngin potensiala malik olan Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu daxili siyasəti sayəsində qazanılan nailiyyətlərin sırasında bu sahənin inkişafı önəmli yer tutur. "Azərbaycanda ən müasir nəqliyyat-yol infrastrukturu yaradılacaq", - deyən ölkə başçısı İlham Əliyev ötən illərdə avtomobil yollarının və yol qurğularının açılışı ilə bağlı çoxsaylı mərasimlərdə iştirakı zamanı bu sahənin inkişafı üçün öz dəyərli tapşırıq və tövsiyələrini verib.

**RƏFİQƏ KAMALQIZI**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

17 oktyabr 2017-ci il

# Bakıda Ümumdünya Ərzaq Gününə həsr edilən tədbir keçirilib

*Heydər Əliyev Fondunun vitse-prezidenti, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva tədbirdə iştirak edib*

***Oktyabrın 16-da ADA Universitetində IDEA İctimai Birliyi, Kənd Təsərrüfatı Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO-nun birgə təşkilatçılığı ilə Ümumdünya Ərzaq Gününə həsr olunan tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva tədbirdə iştirak edib. Bu il Ümumdünya Ərzaq Günü "Miqrasiyanın gələcəyini dəyişək: Ərzaq təhlükəsizliyinə və kənd yerlərinin inkişafına sərmayə qoyaq" mövzusuna həsr olunub.***

Əvvəlcə Leyla Əliyeva ADA Universitetində Kənd Təsərrüfatı Nazirliyinin elmi-tədqiqat institutlarının fəaliyyət istiqamətlərinə aid nəşrlərin nümunələri, kataloq və bukletlərdən ibarət sərgi ilə tanış olub.

Tədbir Ümumdünya Ərzaq Gününə həsr olunan videoçarxın nümayişi ilə başlayıb. FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva tədbirdə çıxış edib.








Ümumdünya Ərzaq Gününün əhəmiyyətini vurğulayan xoşməramlı səfir ərzaq təhlükəsizliyinin və kənd yerlərinin inkişafının dünyada sülhün, sabitliyin və davamlılığın təmin edilməsi üçün vacib amil olduğunu diqqətə çatdırıb, bu sahədə mövcud problemlərin isə münaqişəyə, aclığa və kütləvi miqrasiyaya yol aça biləcəyini bildirib.

"2030-cu il Davamlı İnkişaf üzrə Gündəliyin ilk iki məqsədi məhz yoxsulluq və aclığa son qoyulmasını nəzərdə tutur. Bu, ümumi anlayışı ifadə edir ki, məhz həmin hədəflərə çatmadan biz sülhsevər, inklüziv və davamlı cəmiyyətlər qura bilmərik. Qurduğumuz cəmiyyətlərdə insanlar sağ qalmaq üçün öz evlərini tərk etmək məcburiyyəti qarşısında qalmamalı, bu, onların öz seçimi olmalıdır. Miqrant axını qeyri-bərabər inkişafla sıx şəkildə əlaqəlidir. Dünya əhalisinin demək olar ki, yarısı və dünyadakı yoxsulların 75 faizi kənd yerlərində yaşayır və kənd təsərrüfatından asılıdır. Buna görə də təkcə kəndlərin inkişafına investisiya yatırmaqla biz milyonlarla insanın bu ərazilərdən getməsinin qarşısını ala bilərik. Bununla belə, miqrasiyanın gələcəyini dəyişdirmək o demək deyil ki, biz sadəcə olaraq kənd təsərrüfatının hər hansı formada inkişafına hədəflənməliyik. Yalnız iqlim əsaslı ağıllı kənd təsərrüfatına investisiya yatırmaqla biz kəndlərin inkişafını dəyişdirə və onu daha davamlı edə bilərik", - deyə Heydər Əliyev Fondunun vitse-prezidenti vurğulayıb.

Leyla Əliyeva rəhbərlik etdiyi IDEA İctimai Birliyinin fəaliyyəti, ötən altı ildə görülən işlər, ərzaq təhlükəsizliyi, ətraf mühitin qorunması və davamlı inkişaf üçün xüsusi əhəmiyyət kəsb edən layihələrdən danışaraq deyib: "Son 6 il ərzində biz bir çox layihələr həyata keçirmişik və yaxşı nəticələr əldə etmişik. Bəzi layihələrimizə Azərbaycanda 5 milyon ağac əkilməsi, nəsli kəsilmək təhlükəsi altında olan heyvanların qorunması, elmi laboratoriyaların yaradılması, şagirdlər və tələbələr üçün dərslərin təşkili, kitabların çap edilməsi və ətraf mühitlə bağlı məlumatlılığı artırmaq üçün müxtəlif sərgilərin təşkili daxildir. Əlbəttə ki, biz bütün layihələrimizə çox kreativ şəkildə yanaşmağa çalışmışıq. Lakin biz anlayırıq ki, zaman əleyhimizə işləyir və indi hərəkətə keçmək çox vacibdir.

Bu gün mən sizə IDEA-nın xüsusilə ərzaq təhlükəsizliyi, kəndlərin inkişafı, eyni zamanda, ətraf mühit məsələləri ilə bağlı olan bir neçə layihəsi barədə daha çox məlumat vermək istərdim. Bir neçə ay əvvəl FAO ilə əməkdaşlıq çərçivəsində İsmayıllı rayonunda aztəminatlı Azərbaycan vətəndaşları üçün meyvə bağlarının salınması üzrə birgə layihəyə start verildi. Mən məmnunam ki, təkcə üç gün bundan əvvəl, biz Şəmkir rayonunda bu layihənin həyata keçirilməsinə uğurla başladıq. Yaxın bir neçə həftə ərzində biz Azərbaycanın daha yeddi rayonunda bu layihəyə başlamağı planlaşdırırıq və ümidvarıq ki, gələcəkdə ölkənin digər ərazilərini də əhatə edəcəyik. Məqsəd aztəminatlı ailələrin rifahını yaxşılaşdırmaq və onlara davamlı şəkildə gəlir əldə etməyə kömək göstərməkdir.

Ətraf mühitin vəziyyətinə töhfə vermək, eləcə də ondan asılı olan kənd icmalarına yardım etmək üçün daha bir səy göstərərək ötən il IDEA Kür çayının deltasının təmizlənməsi üzrə çoxaspektli layihənin icrasına başladı. Bu layihə balıq ehtiyatları, suyun keyfiyyəti və bütünlükdə, çayətrafı ərazilərdə ekologiyanın yaxşılaşdırılması məqsədi daşıyır.

Bu gün bizim dünyaya güclü mesaj göndərmək imkanımız var: Miqrasiyanın gələcəyini dəyişin - ərzaq təhlükəsizliyi və kəndlərin inkişafına investisiya yatırın. Mən inanıram ki, birlikdə hərəkət edərək biz böyük dəyişikliyə nail ola, həmçinin özümüzü dəyişdirməklə hər birimiz dünyaya böyük təsir edə bilərik".

Kənd təsərrüfatı naziri Heydər Əsədov çıxış edərək bildirib ki, belə beynəlxalq tədbirlərin təşəbbüskarı olan Azərbaycanın siyasi rəhbərliyi bu tədbirə də öz töhfəsini verib. Beynəlxalq statistikaya görə, dünya əhalisinin 800 milyondan çoxunun aclıqdan əziyyət çəkdiyini, qeyri-rəsmi statistikada isə bu rəqəmin 2 milyard təşkil etdiyini deyən Heydər Əsədov bildirib ki, bu fakt hər bir ölkənin ərzaq təhlükəsizliyinə xüsusi töhfə verməli olduğunu göstərir. Dünyada miqrasiya sahəsində statistikanın nikbin olmadığını, miqrasiyanın artmasının ərzaq təhlükəsizliyinə mənfi təsir göstərdiyini deyən Heydər Əsədov bu problemin Azərbaycana tanış olduğunu bildirib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkün problemi ilə üzləşən ölkəmiz bu problemi demək olar ki, öz daxili gücü hesabına həll edir. Nazir vurğulayıb ki, Azərbaycan hökuməti dünyanın üzləşdiyi bu cür çağırışlarda hər zaman fəal iştirak edir, miqrasiyaya səbəb olan ölkələr isə bu gün miqrantları qəbul etmirlər.

FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak təşkilatın 1945-ci ildə yaranması günü olan 16 oktyabr tarixinin Ümumdünya Ərzaq Günü kimi dünyanın 150-dən çox ölkəsində qeyd edildiyini deyib. O, dünyada artan münaqişə və qeyri-sabitlik səbəbindən bir çox insanların evlərini tərk etmək məcburiyyəti qarşısında qaldıqlarını bildirərək, miqrasiyanın mənfi təsirləri, FAO-nun fəaliyyəti haqqında danışıb. Qeyd edib ki, 2030-cu ildə aclığın sıfıra endirilməsi məqsədinə nail olmaq miqrasiya problemini həll etmədən mümkün deyil. Son 10 ildə aclıqdan əziyyət çəkənlərin sayının yenidən artdığını bildirən Mələk Çakmak 2050-ci ildə sayı 10 milyarda çatacaq dünya əhalisinin qida təhlükəsizliyinin təmin edilməsi məsələsinin gündəmdə olduğunu, bu istiqamətdə strategiyaların hazırlandığını deyib.

Təşkilatın Azərbaycandakı təmsilçisi qurumla məhsuldar tərəfdaşlığa görə Prezident İlham Əliyevə FAO adından təşəkkürünü bildirib. O, təşkilatın mesajlarının dünyaya çatdırılması istiqamətində FAO-nun xoşməramlı səfiri Leyla Əliyevanın səylərini də xüsusi qeyd edib. "Bu gün bir çox insan qida məhsullarına çıxış əldə etməkdə çətinlik çəkir. Bunun əsas səbəblərindən biri də miqrasiyadır". Bu sözləri isə Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan AKTOPRAK deyib. O, miqrasiyanın ərzaq təhlükəsizliyinə, ərzaq təhlükəsizliyinin isə miqrasiyaya təsirindən danışıb. Vurğulayıb ki, bu günə belə problemlərin qarşısını almaq üçün səylər birləşdirilməli, əməkdaşlıq gücləndirilməlidir.

Serhan Aktoprak Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə miqrasiya idarəçiliyində böyük nailiyyətlərin qazanıldığını diqqətə çatdıraraq ölkəmizin digər dövlətlər üçün nümunə olduğunu, bu təcrübənin öyrənilməsinin vacibliyini qeyd edib.

Sonra FAO-nun baş direktoru Joze Qratsiano da Silvanın Ümumdünya Ərzaq Gününə dair videomüraciəti nümayiş olunub. Daha sonra "Azərbaycanda aztəminatlı ailələr üçün meyvə bağlarının salınması" layihəsinə dair videoçarx təqdim edilib. Tədbir "Miqrasiyanın iqtisadi və siyasi tərəfləri: kənd təsərrüfatına və ərzağa təsirləri" mövzusunda panel müzakirələri ilə davam edib.

Kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbovun sədrliyi ilə keçən panel müzakirələrində ərzaq təhlükəsizliyi, davamlı kənd təsərrüfatı və kənd yerlərinin inkişafı baxımından miqrasiyanın yaratdığı çağırışlar və imkanlar haqqında məsələlər ətrafında fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib

***Oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili məktəblərinə tələbə qəbulunun vəziyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq deyib: Muxtar respublikada ali, orta ixtisas və orta təhsilin inkişafı ilə bağlı mühüm işlər görülür.***





Bütün təhsil pillələri üzrə müasir tədris şəraiti yaradılmış, ixtisaslar aid təşkilatlara hamiliyə verilmiş, kadr hazırlığı təmin edilmişdir. Hazırda muxtar respublikanın ali və orta ixtisas təhsili məktəblərində 100-dən çox ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Ona görə də ixtisaslı kadrlara olan tələbatın yerli mütəxəssislər hesabına ödənilməsi daim diqqət mərkəzində saxlanılmalı, ali və orta ixtisas təhsili müəssisələrinin potensialından səmərəli istifadə olunmalıdır.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək deyib ki, 2017-ci ildə ümumtəhsil məktəblərini 2973 məzun bitirib, onlardan 1496-sı ali təhsil müəssisələrinə, 239-u müxtəlif ali hərbi və xüsusi təyinatlı ali məktəblərə qəbul olunub. Ali məktəblərə qəbul olan məzunların 289-u imtahanlarda 500-700 arası bal toplayıb, onlardan 3-ü Prezident təqaüdünə layiq görülüb. 2017-ci ildə abituriyentlərdən 925-i Naxçıvan Dövlət Universitetinə, 196-sı “Naxçıvan” Universitetinə, 208-i isə Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub. 2016-2017-ci tədris ilində ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə 629, Heydər Əliyev adına Hərbi Liseyə isə 180 nəfər qəbul olub. Muxtar respublikada təhsilin dövlət qayğısı ilə əhatə edilməsi əldə olunan uğurlu nəticələrin gələcək illərdə də davamlı xarakter alacağını şərtləndirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: Muxtar respublikada bütün sahələrdə olduğu kimi təhsilin inkişafında da ardıcıl tədbirlər həyata keçirilir. Təhsilin bütün pillələri üzrə infrastruktur yenilənir, tikilən və ya əsaslı şəkildə yenidən qurulan məktəblərin maddi-texniki bazaları gücləndirilir, onlar müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunur, məktəblərlə muzeylər arasında interaktiv dərslər keçirilir. Ümumtəhsil məktəblərində olduğu kimi, ali və orta ixtisas təhsili məktəblərində də müasir tədris metodlarının tətbiqinə xüsusi diqqət yetirilir. Məktəblər aid təşkilatlara hamiliyə verilir, elmi dərəcəsi olan müəllimlərin ümumtəhsil məktəblərində nümunəvi dərsləri təşkil edilir, dərs proseslərində elektron lövhələrdən istifadəyə üstünlük verilir, vahid geyim formaları tətbiq olunur. Bununla yanaşı ali və orta ixtisas təhsili məktəbləri üçün yeni binalar və tədris korpusları tikilir və ya əsaslı şəkildə yenidən qurulur, tələbata uyğun ixtisasların açılması təmin edilir.

Ali Məclisin Sədri deyib: Bu gün istər ali, istərsə də orta ixtisas məktəbləri ən müasir təhsil şəraitinə malikdirlər. Naxçıvan Müəllimlər İnstitutu üçün isə yeni tədris korpusu inşa olunur. Bir sözlə, ali və orta ixtisas təhsili məktəblərinin normal fəaliyyətləri üçün bütün şərait yaradılmışdır. Lakin yaradılan şəraitdən səmərəli istifadə olunmur. Əgər 2016-cı ildə məzunlarımızın 1853 nəfəri, yaxud 90,4 faizi muxtar respublikadakı ali və orta ixtisas təhsili məktəblərini seçmişdirsə, 2017-ci ildə 1782 nəfəri, yaxud 87,2 faizi muxtar respublika ali və orta ixtisas təhsili məktəblərini seçib. Artıq 3 ildir ki, ali və orta ixtisas təhsili məktəblərinin elmi dərəcəli müəllimlərinin ümumtəhsil məktəblərində nümunəvi dərsləri təşkil edilir. Bu, şagird seçimini tənzimləmək üçün də əlavə imkandır. Nümunəvi dərs keçən müəllim təhsillə yanaşı, şagirdlərdə təmsil etdiyi ali və ya orta ixtisas təhsili məktəbinə maraq da oyada bilər. Bundan əlavə, ali və orta ixtisas təhsili məktəbləri dərs prosesinə mane olmamaq şərti ilə yuxarı sinif şagirdləri üçün “açıq qapı” günləri, tanışlıq ekskursiyaları da təşkil edə bilərlər. Bu gün ali və orta ixtisas təhsili məktəblərində muxtar respublikanın tələbatına uyğun ixtisaslar üzrə kadr hazırlığı aparılır. 2017-2018-ci tədris ili üçün keçirilən qəbul imtahanında muxtar respublikanın ali və orta ixtisas təhsili məktəblərində 16 ixtisas üzrə qəbul 50 faizdən aşağı olmuş, ümumilikdə isə tələbə qəbulu üzrə plan yerlərinin 13 faizi boş qalmışdır.

Ali Məclisin Sədri deyib: Hər il xarici ölkələrin məktəbləri muxtar respublikadan olan məzunları müxtəlif vədlərlə öz ölkələrində təhsilə cəlb edirlər. Təəssüf ki, o məktəblərin təyinatı və təhsil səviyyəsi barədə məzunlarımızda kifayət qədər məlumat olmur. Bu məktəblərlə müqayisədə daha yüksək təhsil və sosial şəraitə malik olan muxtar respublika ali məktəblərinin rəhbərləri isə xarici ölkələrdən tələbə təşviqi məsələsində gözləmə mövqeyində dayanırlar. Nəzərə almaq lazımdır ki, əcnəbi vətəndaşların muxtar respublikanın təhsil müəssisələrində təhsil almaları üçün ən müasir təhsil standartları və şərait mövcuddur. Əcnəbi tələbələrin ali təhsil müəssisəsində təhsil alması bir tərəfdən bu təhsil müəssisəsi üçün əlavə maliyyə dəstəyidirsə, digər tərəfdən Naxçıvanın tanıdılmasına və məktəbin reytinqinə də öz təsirini göstərir. Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti və Naxçıvan Müəllimlər İnstitutu bu sahədə fəaliyyətlərini gücləndirməli, əcnəbi tələbələrin təhsil müəssisələrinə cəlbi istiqamətində zəruri işlər görməlidirlər.

Qeyd olunub ki, müasir dövrdə hər bir ali və orta ixtisas təhsili məktəbi daha çox tələbənin cəlb olunmasına çalışmalıdır. Çox təəssüf ki, muxtar respublikanın ali təhsil müəssisələrində qabaqcıl ali təhsil müəssisələrindən geri qalmayan müasir infrastrukturun yaradılmasına baxmayaraq, bu istiqamətdə fəaliyyət zəifdir. Tələbə təşviqinə təsir edən əsas amillərdən biri də təhsil müəssisəsindəki tədrisin səviyyəsidir. Buna görə də ali və orta ixtisas təhsili məktəblərində müasir tədris metodlarının tətbiqinə üstünlük verilməli, kadr hazırlığına diqqət artırılmalı, tədris və istehsalat təcrübələrinin keçirilməsində hami təşkilatların bazasından və imkanlarından səmərəli istifadə olunmalıdır. 2017-2018-ci tədris ilində qeyd olunan istiqamətlərdə fəaliyyət daha da gücləndirilməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulayıb.





# YAP Qubadlı rayon təşkilatının VIII konfransı keçirilib

***Yeni Azərbaycan Partiyası Qubadlı rayon təşkilatının VIII konfransı keçirilib. Sumqayıt şəhərində yerləşən Qubadlı RİH-in iclas zalında keçirilən tədbirdə Qubadlı rayon icra hakimiyyətinin başçısı Malik İsaqov, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov və digər qonaqlar iştirak ediblər. Konfrans nümayəndələri və qonaqlar əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidənin önünə gül-çiçək dəstələri qoyublar. Sonra tədbirdə Dövlət Himni səsləndirilib və YAP-ın yaranmasının 25-ci ildönümünə həsr olunmuş videoçarx nümayiş etdirilib.***

Konfransda YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev geniş hesabat məruzəsi ilə çıxış edib. Natiq bildirib ki, müasir müstəqil Azərbaycan Respublikasının memarı, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kursun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və sədaqətlə davam etdirilməsi nəticəsində ölkəmiz ildən-ilə qüdrətlənir və inkişaf edir. “Hesabat dövründə YAP Qubadlı rayon təşkilatı öz fəaliyyətini partiyanın Nizamnaməsi və Proqram müddəalarının, Yeni Azərbaycan Partiyasının qurultaylarının qərarlarının, İcra Katibliyinin tapşırıq və tövsiyələrinin rəhbər tutulması əsasında tam dəqiqliyi ilə həyata keçirib”-deyə qeyd edən A.Haxverdiyev vurğulayıb ki, hazırda rayonda 80 ərazi ilk partiya təşkilatı, 3371 nəfər üzvü vardır ki, onlardan 1838-i qadın, 1533 nəfəri isə kişidir. Partiya üzvünün 1326 nəfərini gənc təşkil edir.

Çıxış edən Qubadlı rayon icra hakimiyyətinin başçısı Malik İsaqov YAP-ın ölkənin siyasi həyatında əvəzolunmaz rolundan bəhs edərək bildirib ki, Ulu Öndərin rəhbərliyi ilə yaradılan partiya hər zaman milli maraqlarımızın keşiyində dayanıb. M.İsaqov qeyd edib ki, əsası Dahi Lider Heydər Əliyev tərəfindən qoyulan siyasət nəticəsində ölkəmiz bütün sahələr üzrə sürətlə inkişaf edir, gözəlləşir və güclənir. Sevindirici haldır ki, bu uğurlu və xilaskar siyasət Dahi Liderin layiqli davamçısı Cənab Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Konfransda çıxış edən Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, YAP İdarə Heyətinn üzvü Eldar İbrahimov bildirib ki, bu gün Yeni Azərbaycan Partiyasının sıralarında 700 mindən çox vətəndaşımız birləşib: “Sevindirici haldır ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursu bu gün Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı ölkəmizin dünyada tanınmasına nail olub. Sözsüz ki, bu inkişafın önündə YAP aparıcı siyasi qüvvə kimi çıxış edərək, xalqın rifahına xidmət edir və bundan sonra da edəcəkdir”. Konfransda təşkilati məsələlərə baxılıb və Allahverdi Haxverdiyev yenidən YAP Qubadlı rayon təşkilatının sədri seçildi. Konfransda, həmçinin sədrin müavinləri, rayon təşkilatının 15 nəfərdən ibarət idarə heyəti, 31 nəfərdən ibarət şura və 5 nəfərdən ibarət nəzarət-təftiş qrupu formalaşdırılıb.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup rayon sakininə Fəxri Fərmanlar, partiyanın sıralarına yeni qəbul olmuş şəxslərə isə YAP-ın üzvlük vəsiqələri təqdim olunub.

**Rövşən RƏSULOV**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

17 oktyabr 2017-ci il

# Düşmənlər öz istəklərinə çatmamalıdırlar!

*Türkiyə hökumətinin biganəliyi Azərbaycan ictimaiyyətini ciddi narahat edir*

***Bir müddət öncə, Azərbaycan Respublikasının işğal altında olan ərazilərinə qeyri-qanuni səfər edən Türkiyə vətəndaşları beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqla yanaşı, iki ölkə arasındakı mövcud dostluq və qardaşlıq münasibətlərinə zidd fəaliyyət göstərmiş olublar. Belə ki, işğal altında olan Qarabağa səfər edən Türkiyə vətəndaşları Ufuk Uras, Səid Çətinoğlu, Əli Bayramoğlu və Erol Qatırçıoğlu hal-hazırda Türkiyə qəzet və saytlarına qanunsuz səfərləri və səfər təəssüratları haqqında geniş müsahibələr verir, televiziya proqramlarında nümayişkaranə şəkildə Qarabağ ermənilərinin qonaqpərvərliyindən və mövcud durumlarından pozitiv fikirlər yayırlar.***



Bu amil isə əsrlər boyu qardaş ölkə olaraq qəbul edilən Türkiyənin siyasi-ictimai çəkisinə heç də başucalığı gətirmir. Daha dəqiq desək, Türkiyə hökumətinin bu 4 xəyanətkara qarşı ciddi tədbir görməməsi Azərbaycan ictimaiyyətində dərin təəssüf və narahatlıq hissi doğurmaqdadır.

## Türkiyə hökuməti qardaş ölkənin maraqlarını tapdalayan şəxslərin cəzalandırılması üçün heç Belarus hakimiyyəti qədər də qətiyyət göstərmək iqtidarında deyil

Digər tərəfdən, Türkiyə parlamentinin üzvü, erməni mənşəli millət vəkili Karo Paylanın Ermənistana tez-tez səfərlər edərək, prezident Sarkisyanla Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması üçün apardığı danışıqlar da Azərbaycan ictimaiyyətinin diqqətindən yayınmayıb və belə görüşlər mənfi olaraq qiymətləndirilir. Məhz belə olan halda, Türkiyə hökumətinin Azərbaycandakı səfirlik və XİN səviyyəsində yumşaq bəyanatlar verməklə problemin həll olunduğunu düşünməsi təəssüf doğurur. Hətta belə qənaətə gəlinir ki, Türkiyə hökuməti qardaş ölkənin maraqlarını tapdalayan şəxslərin cəzalandırılması üçün heç Belarus hakimiyyəti qədər də qətiyyət göstərmək iqtidarında deyil.

Söz yox ki, bu cür halların qarşısı mütləq şəkildə alınmalı və Azərbaycan-Türkiyə münasibətlərinin arzuolunmaz məcraya yönəlməsinə xidmət edən bənzər səfərlərin xoşagəlməz nəticələrinin qarşısını almaq üçün Türkiyə hökuməti Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmiş vətəndaşları haqqında hüquqi prosedur başlatmalıdır. Məhz bu cür qətiyyətli addımların atıldığı halda, gələcəkdə Qarabağa səfər etmək istəyən digər vətəndaşlar bu cür qeyri-qanuni və ziyanlı addımlardan çəkinəcəklər.

**Türkiyəli millət vəkilləri tərəfindən dəstəklənməsi heç bir izahı olmayan bir hadisə kimi Azərbaycan xalqının yaddaşına yazılıb!**



Bu da son deyil. Belə ki, oktyabrın 11-də Avropa Şurası Parlament Assambleyasında Azərbaycanla bağlı aparılan müzakirələrdə Türkiyə Böyük Millət Məclisinin CHP partiyasından olan deputatları - Dəniz Baykal, Gülsün Bilgəhan, İlhan Kəsici, Azərbaycanın öhdəliklərinə dair həmməruzəçilər Stefan Şennax və Sezar Florin Predanın hazırladıqları "Azərbaycanda demokratik təsisatların vəziyyəti" adlı tənqidi hesabat üzrə qətnamənin lehinə səs veriblər. Bu kimi halların üst-üstə düşməsi isə erməni lobbisinin Türkiyənin ictimai-siyasi çevrələrinə yol açması ehtimallarını artırır və özündə bir sıra reallıqları açığa çıxarmış olur. Çünki Azərbaycana qarşı qərəzli münasibətin, eyni zamanda, erməni lobbisinin və anti-türk, anti-islam dairələrin sistematik fəaliyyətinin əyani təzahürü olan məlum qətnamənin Türkiyəli millət vəkilləri tərəfindən dəstəklənməsi heç bir izahı olmayan bir hadisə kimi Azərbaycan xalqının yaddaşına yazılıb!

O da məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müxtəlif nüfuzlu beynəlxalq qurumlarda, tədbirlərdə, konfranslarda hər zaman ölkəmizlə yanaşı, Türkiyənin də mövqe və maraqlarını qoruyub, dost və qardaş ölkənin əleyhinə səsləndirilən iddialara tutarlı və qətiyyətli cavablar verib. Bu baxımdan, Prezident İlham Əliyevin AŞPA-dakı məlum tarixi çıxışı vurğulananların əyani təzahürüdür.

2015-ci ilin iyul ayında Türkiyədə qanuni hakimiyyətin hərbi yolla devrilməsinə cəhd olunan zaman Azərbaycan Prezidenti öz qəti mövqeyini ortaya qoymaqla, Türkiyə respublikasına və onun rəhbərinə öz dəstəyini ifadə etmişdi.

Həmçinin, ölkəmizin rəhbərliyi ilə yanaşı, Azərbaycanın rəsmi şəxsləri, siyasətçiləri, tanınmış ictimai və siyasi xadimləri, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri heç vaxt Azərbaycanın və Türkiyənin maraqları arasında fərq qoymayaraq, əsl qardaşlıq nümunəsini sərgiləyiblər. Əbəs yerə deyil ki, Türkiyə hökuməti və xalqı üçün həssaslıq kəsb edən bütün məsələlərdə Azərbaycan qardaş ölkə olaraq, öz dəstəyini əsirgəməyib. Misal üçün, 2015-ci ilin iyul ayında Türkiyədə qanuni hakimiyyətin hərbi yolla çevrilməsinə cəhd olunan zaman Azərbaycan Prezidenti öz qəti mövqeyini ortaya qoymaqla, Türkiyə respublikasına və onun rəhbərinə öz dəstəyini ifadə etmişdi.

Ancaq bütün bunlara baxmayaraq, bəzi türkiyəli aydınlar və millət vəkilləri tərəfindən atılan bu kimi addımlar iki ölkə arasındakı əlaqələrin perspektivi üçün ciddi təhlükə yaradırlar. Xüsusən də, Türkiyə hökumətinin istər Qarabağa qanunsuz səfər etmiş vətəndaşları haqqında, istərsə də Azərbaycanın əleyhinə səs vermiş millət vəkilləri barəsində müvafiq tədbirlər görməyəcəyi təqdirdə bu təhlükə daha da dərinləşə bilər. Bu isə, əlbəttə, arzuolunan bir hal sayıla bilməz.

Nəticə olaraq, qardaş ölkələrin bundan sonra da beynəlxalq aləmdə öz mənafelərini birgə qorumaları üçün Türkiyə hökuməti Azərbaycan ictimaiyyətinin haqlı tələblərini nəzərə almalı, həmin şəxslərin cəzalandırılmaları və hüquqi qaydada məsuliyyətə cəlb edilmələri tələbinə biganə yanaşmamalıdır. Daha doğrusu, iki qardaş ölkə arasında olan minasibətlərin ruhuna uyğun hərəkət etməlidir ki, gələcəkdə bir daha eyni vəziyyətlər yaşanmasın və düşmənlər öz istəklərinə çatmasınlar.

**R. RƏSULOV**

# Rusiyanın Ermənistana silah satması bölgədəki vəziyyətə müsbət təsir edə bilməz

*Şimal qonşumuz Qarabağ münaqişəsinin həlli istiqamətində həmsədr ölkə olaraq səmimiyyətini kölgə altında qoyur*

***Bu günlərdə bəlli oldu ki, hələ iki il öncə - 2015-ci il noyabrın 26-da imzalanmış razılaşmaya əsasən, Rusiya Ermənistana müasir silahlar almaq üçün öz üzərinə 200 milyon dollar kredit vermək öhdəliyi götürüb. Ermənistan hökuməti oktyabrın 12-də 100 milyon dollarlıq birinci kredit paketini təsdiq edib. Kredit paketinə əsaslanan müqaviləyə görə, 100 milyonluq kredit Ermənistana 20 il müddətinə verilir.***



Bu müddətin 5 ilinin illik 3 faiz dərəcəsi ilə güzəştli olması nəzərdə tutulub. Beləliklə, həmin vəsaitə Ermənistanın "Smerç" reaktiv sistemləri, "İqla - S" zenit raket kompleksləri, "Avtobaza - M" radiotexniki kəşviyyat kompleksləri, TOC - 1A "Solnsepyok" ağır odsaçan sistemləri və digər sursatlar almaq imkanı yaranır. O da bəllidir ki, Rusiya Ermənistanı müasir silahlarla təchiz edir, təcavüzkar və işğalçı dövlətin hərbi potensialını gücləndirməyə çalışır. Bu amil isə, Şimal qonşumuzun Qarabağ münaqişəsinin həlli istiqamətində həmsədr ölkəsi kimi səmimiyyətini kölgə altında qoymuş olur. Yəni, Rusiya Ermənistana silah satmaqla ATƏT-in Minsk Qrupunun həmsədri kimi üzərinə götürdüyü öhdəliklərini kobudcasına pozur, münaqişə tərəflərinin birinə hərtərəfli yardım göstərməklə, bitərəflik tələbinə əməl etmədiyini açıq şəkildə sərgiləyir. O cümlədən, Rusiyanın Ermənistanı silahlandırması Azərbaycanla olan dostluq, yaxın qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə də ziddir. Belə olmasa idi, mövcud reallıq baş verməz, Rusiya həmsədr ölkə olaraq, vəzifəsinin öhdəsindən gəlməyə cəhdlər göstərərdi.

Bütün bunların yerinə biz, Rusiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç də bitərəf olmadığının şahidlərinə çevrilir, xüsusilə, daha çox Ermənistanın maraqlarına uyğun hərəkət etdiyini görürük. Digər tərəfdən, Azərbaycan ictimaiyyəti yalnız bu məsələdə deyil, digər hallarda da Rusiyanın ölkəmizə qarşı qeyri-səmimi münasibətlərinin şahidi olur. Məsələn, Rusiyanın Ümumrusiya Azərbaycanlıları Konqresinin fəaliyyətinin dayandırılması, bu ölkənin xarici işlər nazirliyinin səsləndirdikləri və əleyhimizə yönəlmiş müxtəlif bəyanatları nümayiş etdirilən mövqenin anlaşılmaz olduğunu sübuta yetirir. Yəni bütün bunlar Rusiyanın Azərbaycanla olan münasibətlərin ruhuna tamamilə zidd təsirlər göstərir. Ona görə də, işğalçı Ermənistanla son kredit müqaviləsinin reallaşdırılması amili təcavüzkarın işğalçılıq siyasətinin, bilavasitə həvəsləndirilməsinə xidmət edir, üstəlik, beynəlxalq hüququn tələblərini kobud şəkildə pozur. Habelə, Rusiyanın Ermənistanı silahlandırması regiondakı təhlükəsizliyi də ciddi təhdid edir və gərginliyin daha da artmasını stimullaşdırır. Buna misal kimi, ötən ilin aprel müharibəsini göstərmək olar ki, məhz qeyd edilən məsələlərdən doğan təcavüzkarlığın qarşısının alınması üçün Azərbaycan Ordusu işğalçı Ermənistana layiqli cavab vermiş oldu, işğal altındakı ərazilərimizin bir qismi atəşkəsin pozulması nəticəsində düşməndən azad edildi. Həmin vaxt Ermənistanın yalvarışları, o cümlədən, Rusiya və beynəlxalq aləmin səyləri nəticəsində müharibənin qarşısı alındı. Bu baxımdan, Rusiyanın yenidən Ermənistana silah satması Azərbaycanın gələcəkdə öz torpaqlarını güc yolu ilə azad edilməsi faktorunu növbəti dəfə qabarda bilər.

Belə olan vəziyyətdə, Azərbaycan dövləti və ictimaiyyəti Rusiyadan daha ölçülüb-biçilmiş siyasət yürüdülməsini, işğalçı Ermənistana yardımlarını dayandırmasını və ATƏT MQ həmsədri kimi öz missiyasını və üzərinə düşən öhdəliklərini yerinə yetirməsini gözləyir. Bu, Rusiyanın tərkibində olduğu qurumdakı ümdə vəzifələrindən biridir.

**Rövşən NURƏDDİNOĞLU**

## Azərbaycan və Ermənistan xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat veriblər

Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat veriblər. Bu barədə AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bəyanatda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan Cenevrədə zirvə görüşü keçiriblər. ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endrü Şoferin (Amerika Birləşmiş Ştatları) himayəsi altında keçirilən görüşdə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan iştirak ediblər. Zirvə görüşünə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də qatılıb. Görüş konstruktiv mühitdə keçib. Prezidentlər danışıqlar prosesini intensivləşdirmək üçün tədbirlər görməyə və təmas xətti boyunca gərginliyi azaltmaq üçün əlavə addımlar atmağa razılaşıblar. Həmsədrlər çox uzun fasilədən sonra baş tutan bu birbaşa danışıqlardan razılıq ifadə ediblər. Onlar Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə sülh yolu ilə həlli üçün tərəflərlə işləməyə hazır olmaqda qalırlar. Növbəti addım kimi həmsədrlər xarici işlər nazirləri ilə yaxın gələcəkdə işçi görüş keçirəcəklər.

# Güclü və nüfuzlu siyasi qüvvə

*YAP Sabunçu rayon təşkilatı partiyanın 25-ci ildönümü münasibəti ilə növbəti tədbirini keçirib*




YAP Sabunçu rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi münasibətilə silsilə tədbirlərini davam etdirir. Dünən YAP Sabunçu rayon təşkilatı partiyanın yubileyi ilə bağlı növbəti tədbirini 252 saylı məktəb-lisey ərazi ilk partiya təşkilatında keçirib.

İlk öncə, Dövlət Himni səsləndikdən sonra tədbiri giriş sözü ilə açan YAP Sabuncu rayon təşkilatının sədri Mehriban Abasquliyeva partiyanın 25 illik yubileyi münasibətilə tədbir iştirakçılarını təbrik edib. M.Abasquliyeva daha sonra YAP-ın ötən 25 ildə keçdiyi çətin və şərəfli yoldan danışıb və Yeni Azərbaycan Partiyasının Azərbaycan tarixində son dərəcə ağır və keşməkeşli günlərdə, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında tarixi zərurətdən yarandığını bildirib: "Yeni Azərbaycan Partiyası böyük bir şəxsiyyətin - bütün həyatını Azərbaycan xalqına həsr etmiş çağdaş dövlətimizin banisi Ulu Öndərimiz Heydər Əliyevin ideyaları ilə yaranıb və yarandığı gündən çox böyük və şərəfli yol keçib".



M.Abasquliyeva onu da vurğulayıb ki, əslində, 1992-ci il noyabrın 21-də Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə belə bir siyasi təşkilatın yaradılması Azərbaycan xalqının sosial sifarişi və cəmiyyətin tələbi idi: "Həmin dövrdə partiyanın yaradılması çox mürəkkəb ictimai-siyasi dövrə təsadüf edirdi. Ölkəni bu vəziyyətdən çıxarmağa qadir olan təcrübəli siyasi xadimə, Ümummilli Liderə ehtiyac var idi. Bunu nəzərə alan 91 nəfər ziyalı Ümummilli Lider Heydər Əliyevə müraciət ünvanladılar. Həmin müraciət 1992-ci ilin oktyabr ayının 16-da "Səs" qəzetində dərc etdirildi. Bu müraciət xalqın Heydər Əliyevə olan inamının ifadəsi idi. Bundan 8 gün sonra - oktyabrın 24-də Heydər Əliyevin ziyalılara müraciəti dərc olundu. Həmin müraciətdə ölkəni böhrandan xilas etməyin konsepsiyası, birmənalı şəkildə öz əksini tapmışdır. Ulu Öndərimiz cavab müraciəti ilə müstəqil Azərbaycan dövlətinin gələcək taleyini müəyyənləşdirdi". M.Abasquliyeva, həmçinin, bildirib ki, Azərbaycanın bugünkü inkişafı, tərəqqisi hər bir Azərbaycan vətəndaşında, Yeni Azərbaycan Partiyasının hər bir üzvündə qürur hissi doğurur və bu gün inkişafın Azərbaycan modelinin mövcudluğunun beynəlxalq səviyyədə təsdiqlənməsi Ulu Öndər Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasətə və bu xəttin layiqli davamçıs, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə söykənir.

Görüşdə 252 saylı məktəb-liseyin direktoru Xədicə Şükürova, məktəbin tarix müəllimi Elmira Həsənqızı və başqaları Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıblar.

Sonda YAP fəallarından Afaq Hacıyeva, Dilarə Abdullayeva və Xədicə Eminova fəxri fərmanla təltif edibilər.

**R.HÜSEYNOVA**

# "Yeni Azərbaycan partiyası 25 il uğurla"

*YAP Tərtər rayon təşilatı ərazi ilk təşkilatlarında partiyanın yubileyi ilə bağlı silsilə tədbirləri davam etdirir*

Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar YAP Tərtər rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında silsilə tədbirlərin keçirilməsi davam edir.



Rayon təşkilatının növbəti tədbirləri rayon kənd təsərrüfatı idarəsi, rayon baytarlıq idarəsi, rayon suvarma sistemləri idarəsi və rayon su-kanal idarəsi ərazi ilk partiya təşkilatlarında keçirilən tədbirlərdə, rayon təşkilatı şurasının üzvləri iştirak edib. Tədbirlərdə öncə Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Görüşdə kənd təsərrüfatı idarəsi ərazi ilk partiya təşkilatının sədri Mehman Babayev, fəal YAP üzvlərindən-Ramiz Mustafayev, Aysel Sadıqova, baytarlıq idarəsi ərazi ilk partiya təşkilatının sədri Elmar Xəlilov, partiya fəallarından Murad Cəfərov, Şükrət Cəfərov, suvarma sistemləri idarəsi ərazi ilk partiya təşkilatının sədri Zahid İbrahimov, YAP üzvlərindən Təvəkkül Məhərrəmov, Nüşabə Baxşəliyeva, su-kanal idarəsi ərazi ilk partiya təşkilatının sədri Namiq Məmmədov, fəal YAP üzvlərindən-Məhəmməd Əliyev, Elnur Abbasov çıxış edərək, Azərbaycanın ictimai-siyasi həyatında çoxşaxəli fəaliyyəti ilə xüsusi yer tutan YAP 25 ilinin heç də asan keçmədiyini bildirib. Çıxış edənlər bildiriblər ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı və bununla da Azərbaycan inkişaf yoluna qədəm qoydu. Hazırda isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası uğurla fəaliyyət göstərir və regionun ən güclü siyasi qüvvəsinə çevrilib.

Odur ki, Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ölkəmizin hər bir yerində, o cümlədən də, Tərtər rayonunda böyük ruh yüksəkliyi ilə qeyd olunmaqdadır.

**RƏFİQƏ**

# Ulu Öndər Heydər Əliyev bugünkü reallıqların möhkəm təməlini qoydu

Dünən YAP Qusar rayon təşkilatının Səhiyyə İşçiləri ərazi ilk partiya təşkilatında partiyanın yaranmasının 25 illik yubileyi və Dövlət Müstəqilliyi Günü münasibəti ilə tədbir keçirilib.



Tədbiri giriş sözü ilə açan YAP Siyasi Şurasının üzvü, rayon təşkilatının sədri David İbramxəlilov Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi və 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibəti ilə partiya üzvlərini təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

D.İbramxəlilov partiyanın yaranma tarixinə qısa nəzər salaraq, onun tarixi zərurətdən yaranmasından, inkişaf yolundan, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafında oynadığı rolundan ətraflı danışıb. Rayon təşkilatının sədri bildirib ki, arxada qoyduğumuz illər Azərbaycanın tarixinə bir-birindən əhəmiyyətli uğurlar yazıb. Azərbaycan çox möhtəşəm inkişaf mərhələsini yaşayır: "Ölkəmiz ən çətin günlərini geridə qoyaraq, bu gün bütün istiqamətlərdə uğurla addımlayır. YAP xalqın ona olan ümidlərini doğrultdu. Azərbaycanın bu günündən müstəqilliyinin ilk illərində yaşadıqlarına baxanda bütün çətinliklər, faciələr və təhlükələr daha aydın görünür. Xalqımız Ulu Öndər Heydər Əliyevin bu çətinlikləri aradan qaldıracağına böyük inam bəsləyirdi. Bu inamı uğurlu və düşünülmüş praqmatik siyasəti ilə doğruldan Ulu Öndər Heydər Əliyev bugünkü reallıqlarımızın möhkəm təməlini qoydu. YAP qələbələri ilə tutduğu yola sadiqliyini təsdiqləyib".



Tədbirdə çıxış edən YAP Qusar rayon təşkilatının sədr müavini Nadirşah Şirinov, təşkilatın qadınlar şurasının sədr müavini Neva Abdurahmanova qeyd ediblər ki, YAP-ın yaranmasından 25 il ötsə də, o, bu qısa zaman kəsiyində zəngin yol keçib: "YAP müasir Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində yeganə iqtidar partiyası olduğunu əməli və səmərəli fəaliyyəti ilə sübuta yetirib. Məhz bu baxımdan, dövlətini və Vətənini sevən hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının ətrafında daha sıx birləşərək, ölkəmizin bu günü və gələcəyi naminə var qüvvəsi ilə fəaliyyət göstərməlidir".

**NƏZAKƏT**

# Yeni Azərbaycan Partiyası 25 illik şərəfli tarixi yolda

## İlham Əliyev: "Yeni Azərbaycan Partiyasının siyasi səhnədə ciddi rəqibi yoxdur"

***XX əsrin 90-cı illərinin əvvəllərində ictimai-siyasi vəziyyətin şərtləndirdiyi obyektiv zərurətdən yaranan Yeni Azərbaycan Partiyası 25 illik tarixi şərəfli yol keçib. YAP qısa vaxtda ictimai-siyasi proseslərə ciddi təsir etməsi baxımından, özünü ifadə edə bilən təşkilata çevrildi və daşıdığı azərbaycançılıq ideyasını cəmiyyətdə təsbit etdi, Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə təsirini göstərdi. Bu gün YAP-ın yaranma tarixinə nəzər salsaq, görərik ki, həmin dövrdə Azərbaycan ağır duruma düşmüşdü, buna görə də, ölkə siyasi və iqtisadi böhran keçirirdi. Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq, ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi.***

Sovet rejiminin və Kommunist Partiyasının süqutundan sonra, müstəqillik əldə etmiş respublikalardan biri kimi, Azərbaycanda da müxtəlif siyasi partiyalar və digər qurumlar təşəkkül tapmağa başlamışdı. Lakin yaradılan partiyalar ölkəni düşdüyü ağır iqtisadi, siyasi və mənəvi böhrandan, nəinki qurtara bilmədi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq, təhlükəli böhran vəziyyətinə çatdırdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi və sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış Lideri və Müdrik Oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə daxil olmuş "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənədi, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də, Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuatda Ona müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda partiyanın təsis konfransı 550 nəfər nümayəndənin iştirakı ilə keçirildi və Heydər Əliyev YAP-ın Sədri seçildi.

Partiya yarananda, Ulu Öndər Heydər Əliyev onun məqsədlərini orada izah etmişdir. Beləliklə, Azərbaycanın ictimai-siyasi səhnəsinə cəmiyyətdəki qüvvələr nisbətini və bundan sonra ölkədə baş verəcək hadisələrin axarını köklü və konstruktiv surətdə dəyişən partiya meydana çıxdı. Yeni Azərbaycan Partiyası qısa bir müddətə geniş şöhrət qazanaraq, cəmiyyətin bütün təbəqə və kateqoriyalarından olan sağlam qüvvələri öz ətrafında birləşdirə bildi və ümumxalq partiyası olmaq istiqamətində uğurlu addımlar atdı.




### YAP-IN SƏDRİ HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN PREZİDENTİ SEÇİLMƏSİ İLƏ PARTİYANIN HƏYATINDA YENİ DÖVRÜN ƏSASI QOYULDU

YAP Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, sıralarında Azərbaycanda hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən siyasi partiya kimi cəmiyyətdə böyük nüfuz qazandı. YAP-a Heydər Əliyev kimi dünya şöhrətli Liderin Sədrlik etməsi partiyanın cəmiyyətdə böyük siyasi nüfuza malik olmasını şərtləndirirdi. Eyni zamanda, ölkəmizin böyük nüfuza və hörmətə malik yüksək intellekt sahibləri YAP sıralarında toplaşdı. YAP yarandığı qısa bir zamandan sonra Bakıda, eləcə də, Azərbaycanın bir çox rayonlarında təşkilatlanma prosesi getdi, təsis konfransları keçirilirdi. Bu, YAP-ı xalq partiyasına çevirmək istəyindən irəli gəlirdi. YAP-ın ümumxalq partiyasına çevrilməsinin bir səbəbi var idi. Azərbaycan dövləti uçuruma getdiyi bir zamanda ölkənin məhvolma təhlükəsindən xilası üçün lider axtarılırdı. Bu da, böyük Şəxsiyyət Heydər Əliyev idi. Xalq Heydər Əliyevi xilaskar kimi qəbul edirdi. Həmin illərdə çətinliklər, məşəqqətlər olub, ancaq Heydər Əliyev siyasəti bunları aradan qaldırıb. YAP öz üzərinə götürdüyü amalları, insanların Ona bağladığı ümidləri doğruldaraq, Azərbaycan vətəndaşlarının Heydər Əliyevdən və Onun yaratdığı partiyadan gözlədikləri nə varsa, hər birini həyata keçirə bildi.

Yeni Azərbaycan Partiyasının Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firəvan həyatının təmin edilməsidir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin ideya bazasını şərtləndirmiş oldu. 1993-cü ilin oktyabr ayının 3-də YAP-ın Sədri Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyuldu.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ictimai-siyasi sabitliyin təmin edilməsi, xaos və anarxiyanın aradan qaldırılması xalqımızın istək və arzuları idi. Heydər Əliyev hakimiyyətə qayıdaraq bunları həyata keçirdi. Sonrakı mərhələdə ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsi önəmli idi ki, Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit və azad bazar iqtisadiyyatı formalaşdı. Xalqın rifahının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atıldı. Sonrakı dövrlərdə digər məsələlər - Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

Azərbaycan Respublikası Konstitusiyasının çərçivəsində öz Proqram və Nizamnaməsinə uyğun fəaliyyət göstərən YAP hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu ideyalarını həyata keçirmək, ölkədə sivil dəyərlər, demokratik prinsiplər əsasında hərtərəfli inkişafa nail olmaq insan hüquq və azadlıqlarının təminatı, liberal dəyərlərə söykənən güclü və sosial yönümlü iqtisadiyyat, sosial ədalət və hər bir Azərbaycan vətəndaşının təminatlı rifahı uğrunda mübarizə aparır.

### BU GÜN AZƏRBAYCAN SÜRƏTLƏ İNKİŞAF EDƏN ÖLKƏYƏ ÇEVRİLİB

Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilib. Bu gün Azərbaycan bütün regionlarında həyata keçirilən dövlət siyasətinin həyata keçirilməsində ən fəal qüvvə YAP-ın təmsilçiləridir. Ulu Öndərin ən böyük tarixi xidmətlərindən biri də odur ki, O, xalqa İlham Əliyev kimi müdrik Rəhbər, sadiq davamçı bəxş etdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkədə həyata keçirdiyi daxili və xarici siyasət, məhz Ulu Öndər Heydər Əliyev siyasətinin davamıdır. Hazırda dünyanın inkişaf etmiş, demokratik prinsiplərinə sadiq, hüquqi dövlətlər sırasında mühüm yeri olan Azərbaycanın müstəqilliyinin qorunmasında və inkişaf etdirilməsində YAP-ın xidmətləri danılmazdır. Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında birgə addımlamağı əsas hədəf kimi qarşıya qoyub. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə YAP bundan sonra da ölkənin qüdrətinin artması, iqtisadiyyatının yüksəlməsi, insanların rifah halının yaxşılaşması kimi şərəfli bir vəzifəni öz çiyinləri üzərində daşımaq iqtidarındadır. Bunları həyata keçirmək üçün ciddi əsaslar var.

Müasir dövrümüzdə Yeni Azərbaycan Partiyası Heydər Əliyev ideyalarına əsaslanır, Heydər Əliyev şəxsiyyətində əks olunan mənəvi gücü cəmiyyətimizə transfer edir.

# Yeni Azərbaycan Partiyası 25 illik şərəfli tarixi yolda

## İlham Əliyev: "Yeni Azərbaycan Partiyasının siyasi səhnədə ciddi rəqibi yoxdur"



Yeni Azərbaycan Partiyası Heydər Əliyev ideyalarını yaşadır, bu ideyalar əsasında Azərbaycan cəmiyyətini kökləyərək inkişafın əsas istiqamətlərini müəyyənləşdirir. 25 illik tarixi gedişdə Yeni Azərbaycan Partiyası bu missiyanı layiqincə yerinə yetirib. YAP taleyinə uğurlar yazılmış bir siyasi təşkilatdır. 25 il ərzində Yeni Azərbaycan Partiyasını daim uğurlar və nailiyyətlər müşayiət edib. Yeni Azərbaycan Partiyasının əldə etdiyi uğurlar ümumilikdə ölkənin inkişafında və tərəqqisində özünü təsdiqləyən, əks etdirən uğurlardır. Bu inkişafa, tərəqqiyə Yeni Azərbaycan Partiyasının 700 mindən artıq üzvünün hər biri öz töhfəsini verməkdədir.

YAP bölgənin ən böyük və güclü partiyasıdır. Eyni zamanda, Avropanın ən böyük partiyası olan Avropa Xalqları Partiyası ilə fəal əməkdaşlıq edir. YAP Asiya qitəsində ən böyük siyasi təşkilat olan Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının və bu təşkilatın rəhbər orqanı olan Daimi Komitənin üzvüdür. Bu gün YAP Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilib. YAP hazırda MDB məkanında ən böyük siyasi təşkilatlardan biridir. YAP-ın beynəlxalq əlaqələri çox genişdir və müxtəlif ölkələrin hakim partiyaları ilə mehriban münasibətləri vardır. Bu da onu göstərir ki, partiya regionda və dünyada çox böyük siyasi nüfuza malikdir.

### YENİ AZƏRBAYCAN PARTİYASININ SIRALARINDA OLMAQ GƏNCLƏR ÜÇÜN QÜRURVERİCİDİR



Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edən gəncləri ətrafında birləşdirən mükəmməl qurulmuş siyasi sistemə çevrilib. Gənclərin seçdiyi bu partiyanın ölkəmizin müstəqillik tarixində oynadığı rolu, ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsində gördüyü işlər və əldə edilən böyük nəticələr hər kəsi qürurlandırır. Yeni Azərbaycan Partiyası həm də gəncliyin partiyasıdır. Möhtəşəm layihələrə imza atılıb. Təkcə ölkə ərazisində deyil, dünya ölkələrində də gənclərin fəaliyyəti genişlənir, xarici dövlətlərin hakim partiyaları ilə münasibətlər qurulur. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edirlər.

Partiyanın xətti ilə keçirilən müxtəlif səpkili layihələrdə gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün yay və qış məktəblərinin təşkil olunması, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi ilə bağlı Azərbaycan Ordusunun əsgərləri ilə görüşlərin, elmi konfransların, seminar və treninqlərin keçirilməsi gənclərin fəallığında müstəsna rola malikdir. Bütün bu fəaliyyət, şaxəli layihələrin gerçəkləşməsi Yeni Azərbaycan Partiyasının sıralarında gənclərin daha sıx birləşmələrinə inam hissini gücləndirir.

### YENİ AZƏRBAYCAN PARTİYASI DÖVLƏTÇİLİK MARAQLARINA XİDMƏT EDƏN XALQIN PARTİYASIDIR

Bu gün Azərbaycan güclü, hüquqi bir dövlətdir. Bu nailiyyətlər Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz təməlin və bu gün ölkə Prezidenti, Partiyanın Sədri Cənab İlham Əliyevin apardığı məqsədyönlü və müdrik siyasət nəticəsində mümkün olub. Bu uğur və mövqe Yeni Azərbaycan Partiyasının fəaliyyətinin məntiqi nəticəsidir ki, reallıq və əməl müstəqil, sürətlə inkişaf edən, modernləşən Azərbaycanın simasında təzahür olunur.

YAP xalqın partiyasıdır, xalqa xidmət edir, milli maraqların keşiyində durur və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə xalqımızı daha da işıqlı gələcəyə aparır. İnanırıq ki, Azərbaycan gələcəkdə daha böyük uğurlara imza atacaq. Bütün bunları isə Azərbaycanda ən güclü siyasi təşkilat olan Yeni Azərbaycan Partiyası və onun Sədri, Azərbaycan Prezidenti Cənab İlham Əliyev reallaşdıracaqdır.

**Zümrüd BAYRAMOVA**

# Azərbaycanın xarici siyasətində Avropa İttifaqı ilə münasibətlərin inkişafı prioritetdir

*Milli Məclisin deputatı Elman Nəsirovun yap.org.az-a müsahibəsi*



***- Elman müəllim, bu yaxınlarda Avropa İttifaqı Şurasının nümayəndə heyəti ölkəmizdə səfərdə oldu. Sizcə, bu səfərin əhəmiyyəti nədən ibarətdir?***

- Avropa İttifaqı Şurasının nümayəndə heyətinin ölkəmizə səfəri Avropa İttifaqının Azərbaycanın regionda yeri və rolunu yüksək qiymətləndirməsinin göstəricisidir. Ümumiyyətlə, Aİ Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolun fərqindədir. Təşkilat gözəl anlayır ki, Avropanın enerjiyə olan tələbatı daha da artmaqdadır. Ənənəvi enerji mənbələri ilə yanaşı Azərbaycan dövləti yeni alternativ enerji mənbəyi funksiyasını həyata keçirir.

Aİ ilə münasibətlərimiz bərabərhüquqlu, qarşılıqlı hörmətə əsaslanan münasibətlərdir. Burada hər bir tərəf fərqindədir ki, əlaqələr bu təmələ söykənərək inkişaf edə bilər. Brüssel və rəsmi Bakı arasında münasibətlər qeyd edilən istiqamətdə inkişaf tempinə malikdir. Prezident İlham Əliyevin nümayəndə heyəti ilə görüşü zamanı Azərbaycanla Aİ-nin ikitərəfli münasibətlərinin geniş formatına dair məsələlər müzakirə olundu. Bu nöqteyi-nəzərdən bu səfər onu göstərir ki, bu gün Aİ Azərbaycanla əlaqələrə böyük önəm verir. Azərbaycan Prezidenti İlham Əliyevin dövlətimizin xarici siyasətində Aİ ilə münasibətlərin prioritet olduğunu xüsusi olaraq vurğulaması da böyük əhəmiyyət daşıyır.

***- Prezident İlham Əliyevin nümayəndə heyəti ilə görüşü zamanı enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu. Aİ ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın perspektivləri haqqında nə deyə bilərsiniz?***

- Ümumiyyətlə, Azərbaycanla Aİ arasında enerji təhlükəsizliyi məsələsi ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm baza rolunu oynayır. Azərbaycan üçün enerji təhlükəsizliyi məsələsi ilk növbədə enerji marşrutlarının şaxələndirilməsində özünü əksini tapır. Aİ üçün isə bu, ilk növbədə enerji mənbələrinin şaxələndirilməsidir. Təbii ki, Avropanın ənənəvi enerji mənbələri var. Bunlardan biri Rusiyadır. İl ərzində Avropanın təxminən 500 milyard kubmetr qaza ehtiyacı var. Elə vaxtlar olub ki, onun 150 milyard kubmetri Rusiyadan alınıb. Amma hazırda Rusiyadan alınan qazın həcmi xeyli aşağı düşüb. Amma bütövlükdə, yenə də Rusiya Avropanın qaz təchizatında əsas mənbələrdən biri olaraq qalır.

Azərbaycan isə Avropa üçün yeni alternativ eneri mənbəyidir. Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının nümayəndə heyəti ilə görüşündə bu məqamı diqqətə saxladı ki, Azərbaycan 3 neft, 4 qaz kəməri ilə enerji ehtiyatlarını ixrac edir. Bütövlükdə, tərəflər arasında qaz sahəsində əməkdaşlıqda ciddi nailiyyətlər əldə edilib. 2011-ci ildən imzalanmış enerji sahəsində əməkdaşlıq memorandumu bu baxımdan xüsusi rol oynayır. Ölkəmiz Cənub Qaz Dəhlizi layihəsi həyata keçirir ki, Avropanın ən böyük meqa-layihəsi hesab oluna bilər. Bu layihənin dəyəri təxminən 40 milyard dollar həcmindədir. Hazırda da bu sahədə əməkdaşlığımız böyük inkişaf tempinə malikdir. Nəzərə alsaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 3 dəfə iclası keçirilib, hər 3 tədbir onu göstərir ki, layihə işlək layihədir. Layihənin başa çatması, yəni onun reallaşması üçün görülən işlər yekunlaşmaqdadır. Burada söhbət ilk növbədə, TANAP və TAP layihəsindən gedir və "Şahdəniz" yatağı əsas mənbədir. Bu layihələr üzrə işlər 2018-2020-ci illərdə tam yekunlaşmalıdır ki, Azərbaycan qazı İtaliyaya çatacaq. Bununla da, Azərbaycan Avropanın qazla təchizatında çox mühüm rola malik olacaq.

Aİ fərqindədir ki, bu layihənin uğurlu olmasını şərtləndirən ən mühüm amillərdən biri Azərbaycanın enerji siyasətində enerji və siyasətin bir birindən ayrı olması ilə bağlıdır. Yəni enerji siyasətin əlində heç bir halda alət rolunu oynamır. Ölkə Prezidentinin bu siyasəti daim uğurlar gətirir.

Bu gün Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir və bu layihə müxtəlif ölkələr arasında enerji sahəsində əməkdaşlığı özündə ehtiva edir, sülhə, əminamanlığa xidmət edir və böyük siyasi çəkiyə malikdir. Aİ təqdir edir ki, Azərbaycan hasilatçı olaraq həm özünün, həm alıcıların, həm tranzit ölkələrin mənafeyini nəzərə alır. Burada bir harmoniya var. Bu sahədə əməkdaşlıq nəticə etibarilə Avropanın meqa-lyihəsinin reallaşmasının şərtlərindən əsas amilə çevrilib.

***- Avropa İttifaqı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində nə dərəcədə rol oynaya bilər?***

- Azərbaycan Prezidenti Aİ Şurasının nümayəndə heyəti ilə görüşü zamanı bu məsələni də diqqət mərkəzində saxladı və münaqişə ilə bağlı son vəziyyətə geniş qiymət verdi. Dövlət başçısı qeyd etdi ki, Ermənistan ciddi cəhdlə çalışırdı ki, danışıqlar prosesi pozulsun və bundan sonra baş tutmasın. Ermənistanın belə mövqeyi ilk növbədə ağılsızlıqdır. Bu, səmərəsiz fəaliyyət idi. Ermənilər danışıqlara başlamaq üçün şərtlər irəli sürürdü. Amma dərk edirlər ki, bu, yol qəbuledilməz bir yoldur. Hazırda Ermənistanın danışıqlar prosesinə qayıtması tendensiyasını müşahidə edirik. Görüş zamanı cənab Prezident ikili standartlardan da bəhs etdi.

Xüsusilə bu məsələ ilə bağlı Aİ-yə gəldikdə güman edirik ki, Aİ münaqişənin həlli prosesində birbaşa iştirakçı olmasa belə, dünyanın ən mühüm güc mərkəzlərindən biri olaraq prosesə siyasi təsir etmək imkanı böyükdür. Eyni zamanda, Aİ bunu edə bilər ki, münaqişə ilə bağlı proseslərə obyektiv qiymət versin. Xüsusilə Avropa Şurası rəhbərliyinin, o cümlədən təşkilatın baş katibi Yaqlandın timsalına ölkəmizə qarşı davranışlar şübhəsiz ki, Azərbaycan cəmiyyətində mənfi qarşılanır. Münaqişə ilə bağlı düzgün olmayan yanaşmaya görə, yalana və böhtanlara görə cəmiyyətimiz onlara etiraz edir. Aİ proseslərdə obyektiv olmalı, AŞ ilə bu məsələ ilə bağlı məsləhətləşmələr aparıb Azərbaycanın haqq işini müdafiə etməlidir.

***- Elman müəllim, Azərbaycanın Avropa İttifaqı, o cümlədən digər beynəlxalq təşkilatlarla fəal əməkdaşlığı fonunda müəyyən xarici qüvvələr ölkəmizə qarşı qərəzli kampaniya aparır. Buna münasibətiniz necədir?***

- Təəssüf ki, Azərbaycana qarşı müəyyən beynəlxalq siyasi dairələr tərəfindən qərəzli kampaniya aparılır. AŞ-nın baş katibi Yaqlandın timsalında bu gün bu yanaşmanı görürük. Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının nümayəndə heyəti ilə görüşündə bu kampaniyanın mahiyyətindən də danışdı. Qeyd etdi ki, kampaniya ilk növbədə dünyada müəyyən siyasi, iqtisadi, maliyyə rıçaqlarına malik olan erməni lobbisinin və diasporunun fəaliyyəti ilə bağlıdır. Eyni zamanda, beynəlxalq QHT-lər bəzi dairələrin əlinə alət olaraq Azərbaycana qarşı təziyq göstərmək üçün istifadə edilir. Cənab Prezident vurğuladı ki, bütün bu yanaşmalar kökündən səhvdir. Azərbaycanı demokratiyanın olmamasında ittiham etmək, insan haqlarının vəziyyəti lə bağlı yalanlar söyləmək ədalətə söykənmir. Əksinə, Azərbaycan demokratik inkişaf yolunu seçmiş dövlətdir, insan haqları tam müdafiə olunur, fundamental hüquqlar, söz, mətbuat, sərbəst toplaşmaq, dini azadlıqlar tam təmin edilir. Eyni zamanda, ölkə əhalisinin 70 faizi internet istifadəçisidir. Bu qədər internet istifadəçisi olan ölkədəı mətbuata qarşı hansı hücumlardan söhbət gedə bilər? Yəni bunlar qeyri-mümkün olan məsələlərdir.

Azərbaycanın inkişaf yolu belə halları istisna edir. Biz demokratik inkişaf yolunu seçmiş dövlətik və bu istiqamətdə ciddi addımlar atırıq. CənabPrezident onu da qeyd etdi ki, bir çox ölkələrdə, o cümlədən Avropa ölkələrində mitinqlərdə itlərdən, atlardan, dəyənəklərdən istafldə edilməsini görmüşük. Amma bunların heç biri Azərbaycanda yoxdur.

Çünki Azərbaycanın yolu demokratiya yoludur. Ölkəmizdə insanlar sərbəst toplaşmaq hüququndan da normal istifadə edirlər. Müxalifət son vaxtlar mitinqlər keçirir. Amma mitinqlərə az adamın gəlməsi müxalifətin öz problemidir. Çünki cəmiyyətimiz bu müxalifəti dəstəkləmir. Cənab Prezident vurğuladı ki, Avropa həqiqəti bilməlidir və doğru mənbələrdən istifadə etməlidir. Bir sıra hallarda isə biz bunun əksini görürük. Həmin qüvvələr çalışırlar ki, Azərbaycanın müstəqil daxili və xarici siyasət yürütməsinin qarşısını alsınlar. Çünki bunu həzm edə bilmirlər ki, Azərbaycan dövləti milli maraqlara uyğun siyasət aparır, xalqımız birmənalı olaraq dövlət başçısının siyasətini dəstəkləyir. Eyni zamanda, müsəlman dövləti olaraq Azərbaycanın sürətli inkişafı Avropadakı islamofob qüvvələri narahat edir. Onlar Azərbaycanda xalq-iqtidar birliyini həzm edə bilmirlər. Ölkəmizdəki monolit birlik onların yuxusuna haram qatır. Ona görə də, ölkəmizlə təzyiq yolu ilə danışmaq istəyirlər. Amma bu cəhdlərin heç bir perspektivi yoxdur. Çünki bugünkü uğurlarımızın kökündə xalqın siyasi iradəsi dayanır, xalq-hakimiyyət birliyi dayanır və birlik olan yerdə inkişaf prosesinin qarşısını almaq mümkün deyil.






## Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə Şəmkir rayonunda silsilə tədbirlər davam edir

***Dünən Şəmkir rayon ağciyər xəstəlikləri xəstəxanası ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 iliyinə həsr edilən tədbir keçirilib.***

Tədbirdə çıxış edənlər Şəmkir rayon ağciyər xəstəlikləri xəstəxanası ərazi ilk partiya təşkilatının sədri Təhməz Mehdixanov, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev və partiyanın digər fəal üzvləri qeyd ediblər ki, ölkəmizin qüdrətinin artırılmasında Yeni Azərbaycan Partiyasının xüsusi xidmətləri var. Qeyd edilib ki, YAP ölkəmiz üçün ən çətin məqamda, hərc-mərclik və özbaşınalığın hökm sürdüyü, xalqın müstəqilik haqqında ümidlərinin və arzularının itdiyi, milli dövlətçiliyimizin mövcudluğunun təhlükə altında olduğu bir vaxtda yaradılıb. YAP öz intellektual səviyyəsi, sosial bazası və Ümummilli Lider Heydər Əliyev siyasi kursu sayəsində qısa müddətdə ölkənin aparıcı qüvvəsi kimi formalaşaraq, ümumxalq partiyasına çevrildi.

Görüşdə çıxış edənlər Azərbaycanda dövlətçiliyin qorunmasında, ölkəmizin tərəqqisində YAP-ın rolunu xüsusi vurğulayaraq, qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq, bu partiyanın sıralarına qoşulmuş 700 mindən artıq insan, partiyanın Sədri, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, ölkəmizin inkişafına mühüm töhfələr verirlər. Natiqlər vurğulayıblar ki, Ulu Öndərin ideyaları Prezident İlham Əliyev tərəfindən ardıcıl sürətdə reallaşdırılır. Ölkənin səhiyyə sistemində aparılan əsaslı islahatlar, tibb müəssisələrinin müasir avadanlıqla təchiz edilməsi, həkimlərin və tibb işçilərinin ixtisas səviyyəsinin artırılması son nəticədə tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarır. Qeyd edilib ki, dövlət başçısının rəhbərliyi ilə ölkədə ən müasir tələblərə cavab verən səhiyyə infrastrukturunun yaradılması, yeni xəstəxanaların tikintisi, mövcud tibb müəssisələrin yenidən qurulması prosesi geniş vüsət alıb. Əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması üçün səhiyyənin ayrı-ayrı sahələrində dövlət proqramlarının rolu vurğulanıb.

Sonda partiyanın bir qrup fəal üzvlərinə fəxri fərmanlar təqdim edilib.

***R.HÜSEYNOVA***

## Ağcabədidə Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubiley tədbirləri davam edir

***Dünən YAP Ağcabədi rayon təşkilatının 7 saylı ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyinə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***





Tədbiri giriş sözü ilə 7 saylı ərazi ilk pariya təşkilatının sədri Polad Musayev açaraq partiyanın yaranma tarixinə qısa nəzər salaraq bildirib ki, Yeni Azərbaycan Partiyası çətin və ağır bir şəraitdə yaradılıb.

Tədbirdə YAP Ağcabədi rayon təşkilatının baş məsləhətçisi Ramil Nağıyev çıxış edərək, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan danışıb. Bildirib ki, bu gün Ulu Öndər Heydər Əliyevin siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmiz bir-birindən əhəmiyyətli nailiyyətlərə imza atır, ən yüksək zirvələri fəth edir:"Böyük sınaqlardan çıxmış, şərəfli yol keçən Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayır".

YAP-ın fəallarından olan Eldar Hüseynov və Püstə Mövsümova çıxış edərək, qeyd ediblər ki, Ümummilli Lider Heydər Əliyevin söylədiyi kimi, "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" sözləri bu gün öz təsdiqini tapmış bir həqiqətə çevrilmişdir.

Sonda tədbirə yekun vuran 7 saylı ərazi ilk təşkilatının sədri Polad Musayev ərazi təşkilatının fəaliyyətindən danışıb. Keçirilən siyasi kampaniyalarda təşkilatın fəal iştirak etdiyini, ərazi təşkilatının gənclər hesabına boy sırasının artdığını, təşkilat üzvlərinin əksəriyyətini təşkil edən təhsil işçilərinin əsas vəzifəsinin xalqa sədaqətli, vətənpərvər, savadlı gənclər yetişdirib cəmiyyətə təqdim etməyi bir başlıca vəzifə kimi qəbul etdiklərini bildirib.

***ZÜMRÜD***

## Biləsuvarda YAP-ın yaranmasının 25-ci ildönümü münasibətilə futbol üzrə keçirilən yarışlar yekunlaşıb



***Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar YAP Biləsuvar rayon təşkilatında silsilə tədbirlərin keçirilməsi davam etdirilir. Bu tədbirlərin davamı olaraq YAP Biləsuvar rayon təşkilatı və rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə partiyanın yaradılmasının 25 illki yubileyi ilə əlaqədar olaraq məktəblilər arasında futzal üzrə rayon birinciliyi keçirilib.***



Tədbirdə YAP Biləsuvar rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əjdər Niftiyev çıxış edərək, Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, 25 il ərzində əldə etdiyi qələbələrdən söhbət açıb. O, eyni zamanda, ölkə Prezidenti İlham Əliyevin idmana olan böyük qayğısını qeyd edib.

Tədbirdə Biləsuvar rayon gənclər və idman idarəsinin rəisi, YAP Biləsuvar rayon təşkilatı gənclər birliyinin sədri Aqşin Bağırov çıxış edərək, respublikamızda gənclərə göstərilən dövlət qayğısından söhbət açıb. Turnirin yekununda qaliblər rayon gənclər və idman idarəsi tərəfindən diplomla, YAP Biləsuvar rayon təşkilatı tərəfindən təsis edilmiş kubok və medallarla təltif ediliblər.

***RƏFİQƏ***

## Balakənli gənclər YAP-ın 25 illiyini böyük coşqu hissi ilə qeyd edirlər

***Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi münasibəti ilə, digər rayonlarda olduğu kimi, partiyanın Balakən rayon təşkilatında da tədbirlər davam etdirilməkdədir. Belə ki, YAP Balakən rayon təşkilatının gənclər birliyi partiyanın 25-ci ildönümü münasibəti ilə təşkilatın şura iclasını keçirib.***





Şura iclasını giriş sözü ilə Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatı gənclər birliyinin sədri Sərxan Hacıyev açaraq, partiyanın yaranma zərurəti və tarixi missiyasından bəhs edib. Ulu Öndər Heydər Əliyevin xalqı və ölkəsi uğrunda üzərinə götürdüyü xilaskarlıq missiyasının nəticəsi olaraq, bu gün inkişaf etmiş Azərbaycanın dünya dövlətləri sırasında liderlik mövqeyinə sahib olduğunu bildirən S.Haciyev bu siyasətin Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. "Bu siyasətin tərkib hissələrindən biri də uğurlu gənclər siyasətidir"-deyə qeyd edən natiq hər bir gəncin ölkə başçısı ətrafında daha da sıx birləşərək, Azərbaycanın inkişafında yorulmadan rol alacağını bildirib.

Partiya fəalı Nurlan Şibliyev də, öz növbəsində, partiyanın 25-ci ildönümü münasibəti ilə siyasi həmfikirlərini təbrik edib və onlara gələcək işlərində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən YAP rayon təşkilatının təsis edilməsində əməyi keçən, 1993-cü ildən partiyanın üzvü olan Ömər Osmanov gənclərə partiyanın yaranma tarixindən, rayon təşkilatının bölmələrindən və həyata keçirilən tədbirlərdən geniş söhbət açıb. O, gənc siyasi həmfikirlərinə uğurlar arzulayaraq, müstəqil Azərbaycanın daim yaşaması üçün onlara uzun ömür və fəaliyyətlərində davamlı uğurlar diləyib.

***R.RƏSULOV***

## "YAP-25 il uğurla" - Yevlaxda 25 illik yubiley münasibəti ilə keçirilən futbol turniri başa çatdı

***Yevlaxda "YAP-25 il uğurla" şüarı çərçivəsində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibəti ilə əlaqədar tədbirlər planı uğurla həyata keçirilməkdədir. Belə tədbirlərdən biri də gənclər arasında keçirilən futbol turniridir. Belə ki, dünən futbol turnirinin final mərhələsi keçirilib. Rayon çempionatında mübarizəyə qoşulan 12 komandanın 3-ü final oyunlarını keçirib.***



Tədbirdə Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev, gənclər birliyinin sədri Ariz Mikayılov çıxış edərək, Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi münasibəti ilə keçirilən bu turniri yevlaxlı gənclərin partiya ətrafında bir dostluq və həmrəylik görüşü kimi qiymətləndiriblər. Onlar qeyd ediblər ki, Yeni Azərbaycan Partiyası gənclər tərəfindən sevilərək qəbul olunan çox nüfuzlu parlaq gələcəyə malik siyasi təşkilatdır. "Yeni Azərbaycan Partiyası xalqın fikirlərinin ifadəçisidir. Biz inanırıq ki, Cənab Prezidentimizin rəhbərliyi ilə bu partiya xalqımızı xoşbəxt gələcəyə doğru uğurla aparacaqdır"-deyə vurğulanıb.

Tədbirdə çıxış edən Yevlax rayon icra hakimiyyəti başçısının müavini Ceyhun Kərimxanov, Yevlax rayon gənclər və idman idarəsinin rəisi Bünyamin Musayev Yeni Azərbaycan Partiyasının 25 illik uğurundan bəhs edərək əhəmiyyətli faktları, tarixi hadisələri bir daha diqqət mərkəzinə gətirərək, Yeni Azərbaycan Partiyasının təşkil etdiyi bu kimi yarışların gənclərimizin sağlam böyüməsinə və ölkəmizdə, eləcə də, şəhərimizdə idmanın inkişafına böyük töhfə olduğunu vurğulayıblar.

Turnir başa çatdırıldıqdan sonra ilk 3 yeri tutan komandalara YAP Yevlax rayon təşkilatı tərəfindən kubok, fəxri fərman və pul mükafatları təqdim olunub.

***Rövşən RƏSULOV***

# Daşkəsən rayonu cari ilin doqquz ayını uğurla başa vurub



***Dünən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan geniş iclasındakı nitqindən irəli gələn vəzifələr Daşkəsən rayon icra hakimiyyəti başçısı yanında Şuranın rayonun sənaye müəssisələri, təsərrüfat xidmətləri, təhsil, səhiyyə müəssisələri, hüquq-mühafizə orqanları rəhbərlərinin, bələdiyyələrin, gənclər təşkilatlarının və rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə keçirilən iclasında ətraflı müzakirə olunubdur.***



Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev iclasda çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası barədə ətraflı məlumat verərək, qeyd edibdir ki, ölkə Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu daxili və xarici siyasət, həyata keçirilən tədbirlər nəticəsində 2017-ci ilin doqquz ayında da Azərbaycan Respublikasında inkişaf davam edərək, siyasi sabitlik yüksək səviyyədə təmin olunub və dövlətçiliyimizin mövqeyi daha da möhkəmlənibdir: "Ölkə Prezident İlham Əliyev iclasda demişdir: "...İlin doqquz ayı arxada qalır. Bu doqquz ayda ölkəmiz uğurla və hərtərəfli inkişaf etmişdir. Bütün sahələrdə dinamik inkişaf təmin olunmuşdur. Doqquz ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir. Qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb. Hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Bu, son illərdə apardığımız siyasətin nəticəsidir. Çünki qeyri-neft sektorunun inkişafı bizim əsas prioritetimizdir və 2,5 faiz artan qeyri-neft iqtisadiyyatımız həm uğurlu islahatlarımızın göstəricisidir, həm də onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi məsələləri öz həllini uğurla tapıbdır. Qeyri-neft sektorunun sənaye hissəsi də uğurla inkişaf edir. Qeyri-neft sənayesi 9 ayda 3,1 faiz artmışdır. Bu da sənayeləşmə siyasətimizin gözəl nəticəsidir". Ə.Abıyev əldə olunan bu uğurların dövlət başçısı İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsi olduğunu bildirib. Qeyd edib ki, məhz bu uğurlu siyasət nəticəsində son illər Daşkəsənin siması tanınmaz dərəcədə dəyişibdər. Ölkədə aparılan yenidənqurma işlərində ön sıralarda gedən bu rayonda abadlıq və quruculuq işləri indi də uğurla davam etdirilir.

Rayon rəhbəri aparılan tikinti-quraşdırma, abadlıq və yenidənqurma işləri ilə bağlı bildirib ki, rayon kənd təsərrüfatı idarəsinin inzibati binasının tikintisi başa çatdırılıb, yeni "Hotel" və "Restoran" istifadəyə verilib, rayon məhkəməsinin inzibati binası əsaslı təmir olunub, Dövlət Notariat Kontoru və rayon qeydiyyat şöbəsi yeni binaya köçürülübdür. Həmçinin, rayon mərkəzi xəstəxanasının binasında əsaslı, Qabaqtəpə kənd xəstəxanasında və Xoşbulaq həkim məntəqəsində isə cari təmir işləri aparılıb, Bayan kənd tam orta məktəbin dam örtüyü yenisi ilə əvəz olunub, Güneykənd kəndində isə 56 şagird yerlik modul tipli yeni məktəb binasının tikintisinə başlanılıbdır. Daşkəsən şəhərində 9 çoxmərtəbəli yaşayış binasının təmir işləri başa çatmaq üzrədir. Rayonun 8 kəndində polis sahə məntəqələrinin tikintisi başa çatdırılaraq istifadəyə verilibdir. "Azərsu" ASC-nin rayonda yeni inzibati binasının tikilməsi məqsədilə torpaq sahəsi ayrılıb.

Ə.Abıyev rayonda heyvandarlığın sürətli inkişafı da prioritetlərdən biri olduğunu söyləyərək vurğulayıb ki, rayonda 2 kartofçuluq üzrə toxumçuluq və 1 damazlıq mal-qara təsərrüfatı fəaliyyət göstərir. Toxumçuluq və damazlıq təsərrüfatlarının artırılması üçün işlər davam etdirilir. 2017-ci ilin məhsulu üçün 713 hektar sahədə buğda əkilərək 1568,6 ton məhsul istehsal olunub, 61 hektar sahədə isə arpa əkilərək 156,6 ton məhsul istehsal olunubdur.

Yığıncaqda rayon təhsil şöbəsinin müdiri Zaur Məmmədov, RİHB-nin Quşçu kənd İƏDÜN-si Firudin Həsənov və RİHB-nin şəhər İƏDÜN-si Nüsrət Vəliyev çıxış edərək, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər və əldə olunan nailiyyətlərlə yanaşı, həm də həllini gözləyən problemlər, çatışmazlıqlar və onların aradan qaldırılması yolları, rayonda aparılması nəzərdə tutulan abadlıq işləri, rayondakı dini durum və vətəndaşların müraciətləri ilə bağlı görülən işlər də müzakirə olunub.

Yığıncağın sonunda gündəlikdəki məsələ ilə əlaqədar qərar layihəsi qəbul edilib.

Sonda toplantı iştirakçıları adından ölkə Prezidenti İlham Əliyevə müraciət ünvanlanıb.

**R.KAMALQIZI**

# Demokratiya pərdəsi altında riyakarlıq!

*Helsinki Komissiyasının Dağlıq Qarabağla bağlı dinləmələri Ermənistana yeni yardım imkanlarının yaradılması məqsədi güdür*

***Məlum olduğu kimi, ABŞ Helsinki Komissiyası oktyabrın 18-də Dağlıq Qarabağ müharibəsinin yenidən başlanmasının mümkünlüyü, bu məsələdə ABŞ və ATƏT-in rolu mövzusunda dinləmələr keçirəcək. Belə ki, komissiyanın məlumatında 2016-cı ildə münaqişə zonasında baş vermiş hərbi əməliyyatlar zamanı itkilərin statistikası verilir və eyni zamanda, iddia edilir ki, sözügedən münaqişəyə Rusiya, Türkiyə və İran da cəlb edilə bilər. Məlumatda o da bildirilir ki, dinləmələrdə ATƏT-in Minsk Qrupunun keçmiş həmsədrləri Keri Kavano (1999-2001-ci illər), Ceyms Uorlik (2013-2016-cı illər), Beynəlxalq Böhran Qrupunun proqram direktoru Maqdalena Qrono çıxış edəcəklər.***

Qeyd olunanlarla yanaşı, Helsinki Komissiyası ATƏT ölkələrində Helsinki Yekun Aktına və başqa öhdəliklərə əməl olunmasının monitorinqi və təbliği məqsədilə yaradıldığını bəyan edir.

## Nədənsə, komitə bir dəfə də olsun bu təcavüzkar ölkəni qınayan bəyanat qəbul etməyib



Diqqətçəkən məqamlardan biri də budur ki, 1975-ci il avqustun 1-də Helsinkidə Ümumavropa Müşavirəsinin iştirakçıları tərəfindən imzalanmış yekun aktının 10 əsas prinsipinin 8-i (suveren bərabərlik, zor işlətməmək; sərhədlərin toxunulmazlığı; dövlətlərin ərazi bütövlüyü; mübahisənin dinc yolla həll olunması; bir-birinin daxili işlərinə qarışmamaq; insan hüquqlarına və əsas azadlıqlara hörmət; dövlətlər arasında əməkdaşlıq; beynəlxalq müqavilə öhdəliklərinin vicdanla yerinə yetirilməsi), bilavasitə işğalçılıq siyasəti yürüdən Ermənistan tərəfindən kobud şəkildə pozulsa da, komitə bir dəfə də olsun bu təcavüzkar ölkəni qınayan bəyanat qəbul etməyib.

Yeri gəlmişkən, xatırlatmaq yerinə düşərdi ki, ABŞ-ın Helsinki Komissiyasının sədri, konqresmen Kristofer Smit vaxtilə Demokratlar Partiyasının üzvü, sonra Respublikaçılar Partiyasının üzvü olub, indi də ABŞ-dakı erməni lobbisinin ən fəal nümayəndələrindən biri kimi əlinə düşən hər imkandan maksimum şəkildə yararlanaraq, Azərbaycana qarşı qərəz və şantaj dolu siyasət yeridir.

Çünki K.Smit Azərbaycana qarşı "907-ci düzəliş"in müəlliflərindən biri, ermənilərin işğalçılıq siyasətinə bəraət qazandıran, Dağlıq Qarabağın müstəqilləşməsi ideyasını təbliğ edən və bu istiqamətdə əsaslı tədbirlər görən şəxsdir. Məhz bu səbəbdən, onun məlum tədbirlərdə ölkəmizin siyasi mövqeyinə müsbət fikirlər səsləndirməsi absurd görünür. Yəni sözügedən "907-ci düzəliş" 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək" Aktına qəbul edilib və Azərbaycana Amerikanın birbaşa dövlət yardımını yasaqlayıb.

## ABŞ-ın erməni lobbisinin aparıcı üzvü Aram Hamparyan Kristofer Smitlə tez-tez görüşür...

Həmin bədnam qətnamənin müəlliflərindən biri olaraq, Smitin digər məsələdə - qondarma erməni soyqırımının tanınması istiqamətindəki fəallığını da unutmaq olmaz. Əbəs deyil ki, ABŞ Erməni Milli Komitəsinin (ANKA) radikal rəhbərlərindən biri olan Aram Hamparyan "Twitter" səhifəsində konqresmen K.Smitin ANKA sədri ilə görüşünü əks etdirən fotoşəkillər və informasiyalar yer alıb. Alt yazısında isə A.Hamparyan qeyd edirdi ki, "erməni işi"ni dəstəkləmək üçün Smit ilə görüşür. Məgər bundan vacib fakta ehtiyac qalırmı?

Elecə də, daha bir xatırlatmanı etmək yerinə düşərdi. Yəni bu, həmin K.Smitdir ki, iki il öncə - 2015-ci ildə Azərbaycanda yüksək vəzifəli məmurlara sanksiyaların tətbiq olunması ilə bağlı "Azərbaycan demokratiya aktı" adlı layihəni konqresə təqdim edərək qəbul olunmasını istəmişdir.

Bütün bunları nəzərə alan və diqqətdə saxlayan Azərbyacan tərəfi dəfələrlə bəyan edib ki, ABŞ Helsinki Komissiyasının və onun rəhbərinin indiyəqədərki fəaliyyətləri və qondarma dinləmələri pozitiv nəticələnə bilməz. Ortada olan birbaşa Azərbaycana qarşı aparılan ermənipərəst siyasətidir. Görünür, K.Smit və təmsil etdiyi erməni lobbisi davamlı olaraq ölkəmiz əleyhinə dinləmələr keçirməklə Ermənistanı "müdafiəyə ehtiyacı olan tərəf" kimi tanıtmaq və ABŞ qanunvericilərini işğalçı rejimə maliyyə və hərbi xarakterli yadımı artırmağa çağırmaq məqsədi güdür. Buna isə demokratiya deyil, yalnız bir ad vermək olar - demokratiya pərdəsi altında riyakarlıq!

**Rövşən RƏSULOV**

# "Qarabağ"-"Atletiko Madrid" oyunu zamanı Bakı metrosu gücləndirilmiş iş rejimində çalışacaq

Oktyabrın 18-də UEFA Çempionlar Liqasının qrup mərhələsi çərçivəsində keçiriləcək "Qarabağ"-"Atletiko Madrid" oyunu ilə əlaqədar Bakı metrosu gücləndirilmiş iş rejiminə keçəcək. Bu barədə "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev AZƏRTAC-a açıqlamasında deyib. O bildirib ki, "Qarabağ"ın oyunu zamanı sadəcə "Koroğlu" metro stansiyası deyil digər stansiyalarda da gücləndirilmiş iş rejimi tətbiq ediləcək. Həmçinin "Koroğlu" metro stansiyasında sərnişin axınına nəzarət etmək üçün müxtəlif tədbirlər görüləcək, şəraitə uyğun olaraq stansiyaya giriş-çıxışların yerləri dəyişdirilə bilər. N.Paşayevin sözlərinə görə, sərnişinlərin təhlükəsiz daşınması üçün bütün zəruri tədbirlər görüləcək. Bunun üçün əlavə mexanizm, canlı qüvvə və eyni zamanda ehtiyat qatarlar cəlb olunacaq. Oyun keçirilən gün saat 18:00-dan etibarən sərnişin axını tam nəzarətdə olacaq.

Metropoliten rəsmisi qeyd edib ki, Bakı metrosu oyundan çıxan bütün sərnişinləri qəbul etmək iqtidarındadır. Sərnişin çox olarsa axın nizamlanacaq və sərnişinlər müəyyən gözləmələrlə stansiyaya qəbul ediləcək. Bakıda keçirilən mötəbər idman oyunlarında da bu tətbiq edilib.

# Suraxanıda Dövlət Müstəqilliyi Günü münasibəti ilə silsilə tədbirlər keçirilir

***18 Oktyabr - Dövlət Müstəqilliyi Günü münasibəti ilə Suraxanı rayon icra hakimiyyətinin təşkilatçılığı ilə rayonun təhsil, səhiyyə, sənaye və mədəniyyət müəssisələrində silsilə tədbirlər keçirilir. Növbəti tədbir rayonun səhiyyə işçilərinin iştirakı ilə 13 nömrəli Birləşmiş şəhər Xəstəxanasında keçirilib.***



Tədbiri giriş sözü ilə açan 13 nömrəli Birləşmiş şəhər Xəstəxanasının baş həkimi Zümrüd Abdullayeva tədbir iştirakçılarını Müstəqillik Günü münasibəti ilə təbrik edərək bildirib ki, 18 Oktyabr- Dövlət Müstəqilliyi Günü Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir:"1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Bununla da, Azərbaycanın tarixində yeni dövrün başlanğıcı qoyuldu. Bu gün həmin hadisələrdən 26 il ötür".

Tədbirdə məruzə ilə çıxış edən Suraxanı rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Barxudar Barxudarov qeyd edib ki, tarix üçün uzun olmayan bu zaman kəsiyində Azərbaycan çox böyük inkişaf yolu keçib. Lakin bu 26 ilin heç də bütün dövrləri müsbət siyasi-iqtisadi proseslərlə yadda qalmayıb. Çünki 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi cəmiyyətimiz tərəfindən nə qədər böyük razılıq hissi ilə qarşılansa da, sonrakı dövrdə baş verən neqativ siyasi proseslər xalqımızın azadlıq ideyalarını təhlükə altına almışdı. Hakimiyyət çəkişmələrinin məntiqi nəticəsi kimi cəbhədəki uğursuzluqlar və daxildə separatçı meyillərin güclənməsi dövlətçiliyimizin və müstəqilliyimizin məhvini qaçılmaz edirdi.

Belə bir ağır və mürəkkəb dövrdə xalqın təkidli tələbi ilə böyük siyasi təcrübəyə malik olan Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın dövlət müstəqilliyinin qorunub- saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu. Xalqımızın Dahi Oğlunun hakimiyyətə dönüşü ilə respublikamızın 1920-ci ildəki aqibətinin təkrarlanması təhlükəsi sovuşduruldu.

Tədbirdə 23 nömrəli Şəhər Poliklinikasının baş həkimi Şərabanı Yusifzadə, 12 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi Bəhlul Məmmədov, 15 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının həkimi Şəfa Yusifova, 24 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının həkimi Şərqiyə İsmayılova çıxış ediblər.

***ZÜMRÜD***

## Doğma vətəninə döndü Cavidim

Sevgidən yazanda böyük sənətkar,
Utancaq uşaq tək həyalı oldu.
Getdi öz yoluyla, öz cığırıyla,
Sözündə, eşqində vəfalı oldu.
Önünə sədd çəkdi qərəzli tənqid,
Sevgi və məhəbbət amalı oldu.

Özünü realist adlandıranlar,
Bir qulp qoyurdular hər kəlməsinə.
Vətəndən didərgin saldılar onu,
Hay verən olmadı onun səsinə.
Bədxah adamların felinə düşdü,
Özünü qurban getdi fəlsəfəsinə.

Nil sahillərində, Rur hövzəsində,
Söz açdı "Azər"in qətiyyətindən.
"Afət" dilə gəldi sərt "Uçurum"da,
Türk xalqının ağır vəziyyətindən.
Susdu İskəndərlər, Napoleonlar,
"Topal Teymur"unun şücaətindən.

Cavidin zəhməti hədər getmədi,
Yazdı öz dövrünün faciəsini.
Riqqətə gətirdi daş ürəkləri,
"Şeyx Sənan"ının ahı-naləsi.
İblis qəlblilərə təsir etmədi,
Onun qələmindən çıxan "İblis"i.

O böyük sənətkar ruhdan düşmədi,
Ağrılı-acılı günlər görəndə.
Duymuşdu gələcək bədbəxtliyini,
"Xəyyam"da Sevdaya zəhər verəndə.
Söylədi dönmərəm idealımdan,
Sürgün olunağı xəbər verəndə.

Uzaq Şərq elinin sopkalarında,
Üşüdü Cavidim, dondu Cavidim.
Öz son günlərini yaşayan zaman,
Bütün insanlığı andı Cavidim.
Ölümündən qırx il keçəndən sonra,
Doğma vətəninə döndü Cavidim.

***VALEH MƏHƏRRƏMLİ***

***Hüseyn Cavidin 135 illik yubileyinə həsr olunan müsabiqəyə təqdim etmək üçün***

# 17 oktyabr Yoxsulluqla Mübarizə Günüdür

***Azərbaycanda əhalinin sosial rifahının yaxşılaşdırılması dövlət siyasətinin əsas istiqamətlərindəndir. Bu gün dövlətin iqtisadi siyasətinin sosialyönümlü olması, Azərbaycan Prezidenti İlham Əliyevin ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə göstərdiyi diqqət insan amilinə verilən yüksək dəyərin nümunəsidir. Ölkəmizdə əhalinin sosial rifahının yüksəldilməsi əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrümüzdə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasət nəticəsində əhalinin sosial rifahı yüksəlib və yoxsulluq səviyyəsi minuma endirilib. Azərbaycan dövləti tərəfindən yoxsulluğun azaldılması istiqamətində mühüm addımlar atılıb və bunun nəticəsidir ki, ölkəmizdə əhalinin yoxsulluq həddi ildən-ilə azalıb.***

Bu günü - 17 oktyabr tarixini bütün dünya Ümumdünya Yoxsulluqla Mübarizə Günü kimi qeyd edir. 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının 17 oktyabr tarixini Yoxsulluqla Mübarizə Günü kimi elan etməsi bütün bəşəriyyəti bu problemlə mübarizəyə səsləmiş oldu. Bu günün təsis edilməsinin məqsədi yoxsulluğa qarşı milli, regional və beynəlxalq səviyyələrdə mübarizə səylərini birləşdirməkdir.

### TƏKCƏ BU İLİN DOQQUZ AYINDA HƏM BAKIDA, HƏM BÖLGƏLƏRDƏ YENİ İŞ YERLƏRİNİN YARADILMASI PROSESİ UĞURLA GEDİB

Azərbaycan dövləti müstəqillik qazandığı illər ərzində yoxsulluğun azaldılması üzrə qəbul edilən dövlət proqramları öz nəticəsini verib. Azərbaycan Respublikası Prezidentinin



2003-cü il 20 fevral tarixli Fərmanı ilə təsdiq edilən "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7 faizdən 29,3 faizə endirildi. Azərbaycanda sosial-iqtisadi tərəqqi fonunda qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılmasına təsir göstərib.

Azərbaycan dövlətinin yoxsulluğun aradan qaldırılması istiqamətində həyata keçirdiyi davamlı işlər və bu məqsədlə dövlət başçısı tərəfindən imzalanan "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" yoxsulluğun aradan qaldırılmasında daha bir addım oldu.

Təsadüfi deyil ki, Azərbaycan son illərdə yüksək inkişaf tempinə görə dünyanın lider dövlətləri arasındadır. Davos Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan Respublikası daha iki pillə irəliləyərək iqtisadiyyatın rəqabətə davamlılığına görə dünya ölkələri sırasında 35-ci yerdə qərarlaşmışdır. 140 ölkə arasında rəqabətqabiliyyətliliyini əks etdirən bu hesabatın nəticələri Azərbaycanın dünya miqyasında iqtisadi cəhətdən nüfuzunu və gücünü əks etdirir. Cənab Prezident bunu böyük uğurumuz və tarixi nailiyyətimiz kimi qiymətləndirib: "Bu, əslində, bizim iqtisadi siyasətimizin uğurlarını dünyanın ən mötəbər iqtisadi forumu olan Davos Forumu tərəfindən qiymətləndirilməsi deməkdir".

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Prezidenti nitqində ölkəmizin uğurla və hərtərəfli inkişaf etdiyin bildirərək, vurğulamışdır ki, təkcə bu ilin doqquz ayında həm Bakıda, həm bölgələrdə yeni iş yerlərinin yaradılması prosesi uğurla gedib: "Həmin dövrdə 226 min yeni iş yeri yaradılıbdır ki, onlardan 171 mini daimi iş yeridir. Bu da işsizliyin aşağı səviyyədə saxlanmasına imkan verir. Bu, daimi proses olmalıdır. Çünki bizim əhalimiz artır və belə olan halda, biz daim yeni iş yerlərinin yaradılması haqqında düşünməliyik".

Ölkəmizə bütün sahələrdə kənd təsərrüfatı, sənaye sahələrində və s. aparılan uğurlu islahatların, layihələrin nəticəsində ölkəmizdə işsizlik səviyyəsi 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə enib. Sosialyönümlü dövlət proqramlarının uğurlu icrası sayəsində işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, işsizlərin və sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsinə nail olunub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# 7 yol-nəqliyyat hadisəsi nəticəsində dörd nəfər ölüb, 12 nəfər xəsarət alıb

Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün qeydə alınmış 78 cinayət faktından 10-nun üstü "isti izlər"lə açılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə axtarılan səkkiz nəfər tutularaq istintaq orqanlarına təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş yeddi yol-nəqliyyat hadisəsi nəticəsində dörd nəfər ölüb, 12 nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklə əlaqəli bir fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 19 nəfər tutulub.

# Elşən Musayev: "Əli Kərimlinin türmədən savayı gedəcəyi yer qalmayıb"

## *Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir*



***- Elşən müəllim, Avropa Şurasının Azərbaycanla bağlı qəbul etdiyi qərəzli qətnaməyə ermənilər qədər Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli və Arif Hacılı kimilər də çox sevinirlər. Bu baxımdan, demək olarmı ki, Azərbaycana qarşı qərəzli xarici kampaniyaların aparılmasında ermənilərlə dağıdıcı müxalifətin maraqları üst-üstə düşür?***

- Onların bir tək maraqları deyil, xislətləri, tərbiyələri, xarakterləri, Azərbaycanla bağlı düşüncələri də üst-üstə düşür. Çünki özlərini bu millətdən və bu torpaq övladlarından biri hesab eləmirlər. Halbuki müxalifətçiliyin də bir etiket qaydası, "qırmızı xətti" olmalıdı. Yəni hakimiyyəti və iqtidarı sevməyə bilərsən, bu mövzuda seçimin azaddır. Bəs dövlət, millət, xalq? Onudamı sevmirsən? Avropa Şurası nə vaxtdan bunların dostu olub, nə vaxtdan Kərimli, Hacılı qərəzli qurumla qardaşlıq sazişi bağlayıb ki, bizim xəbərimiz yoxdur? Heç vaxt, təbii. Deməli, mövzu və motiv başqadır. Müxalifət acısından bütün hesablamalar "hakimiyyətə necə gəlim", "kimin ürəyini bulandırım", "hansı tiyəyə saplaq olum" fəlsəfi ilə sualı gerçəkləşir. Ona görə də, bu gündədirlər. 15 ildir ki, bir stadionun yarısını doldura bilmirlər.

***- Sizcə, nəyə görə "REAL" Hərəkatının sədri konkret cinayət əməlinə görə azadlıqdan məhrum edilən İlqar Məmmədov Avropa Şurasındakı erməni lobbisi üçün bu qədər prinsipial əhəmiyyət kəsb edən şəxsə çevrilib?***

- İlqar Məmmədov Avropa Şurasının işçisi olub. Yəni bu qurumdan maaş alıb və onlar üçün çalışıb. İndi də Avropa Şurası öz aləmində öz kadrına sahib çıxır, üstəlik bütün ümumbəşəri dəyərləri tapdalayaraq. Halbuki İlqar Məmmədovun siyasi motivlə həbs olunmaması onların özünə də gün kimi aydındır. Amma İlqarin Yaqlandla olan dostluğu, çörək kəsimi Avropa Şurasının imicinə bu gün əməllicə kölgə salır. Təbii, bu məsələdə erməni lobbisi də çox fəaldır. Sizə adi bir fakt deyim. Bunu nümayəndə heyətinin üzvü olaraq müşahidə eləmişəm. Erməni deputatlar demək olar ki, bütün çıxışlarında İ.Məmmədovun adını çəkirlər. Öz dərdləri, müdafiə eləməli olduqları məsələlər qalır bir kənarda, məhz İlqardan danışırlar. Niyə? Səbəb? Nəyidi İlqar bunların? Qardaşıdı? - Yox. Həmvətənidir? - Yox. Bəs o zaman niyə belə canfəşanlıq edirlər? Ona görə ki, İlqar Məmmədov ermənilərlə həmfikirdir, dostdur. İlqar onlar üçün doğma və əzizdir. Başqa səbəb görə... ancaq tapa bilmirəm.

***- "Milli Şura" yenidən mitinq keçirtməyi planlaşdırır. Bu da Avropa Şurasında Azərbaycanla bağlı dinləmələrin keçirildiyi ərəfəyə təsadüf edir. Bu, o deməkdir ki, Avropa Şurasında ermənipərəst qüvvələrlə dağıdıcı müxalifət fəaliyyətlərini birgə uzlaşdırır?***

- Onlar çoxdan bərabər səviyyədə uzlaşırlar. Bu, indinin söhbəti deyil. Erməni bunlara ötürmə edir, bunlar erməniyə. Ona görə də, artıq belə şeylərə təəccüb eləmirəm. Əli Kərimlinin dosyesi, elə ancaq indiki fəaliyyəti doğru-dürüst araşdırılsa, bu adamın türmədən savayı gedəcəyi yer qalmaz. Adam elə bil özünə təməldən, bünövrədən söz verib, and içib ki, bu millətin, bu dövlətin əleyhinə nə mümkünsə edəcək. Əhdinə də sadiqdir. Nə nadürüstlük, nə fitnəkarlıq, nə riyakarlıq varsa, Kərimlinin başının altından çıxır. Mitinqləri isə dərnək konsertlərinə bənzəyir. Bilinmir nəyə yığışıblar, nə istəyirlər, dərdləri nədir.

***- Sizcə, nəyə görə müxalifət və onun liderləri Azərbaycan dövlətinə və xalqına qarşı bu qədər aqressiya nümayiş etdirir?***

- Onlar, sadəcə, öz uğursuzuqlarının bədəlini bu dövlətə, bu millətə yükləmək istəyirlər. Ona görə aqressivdirlər. Həmdə hakimiyyət dönəmlərindən bu yana dişlərinin dibində kreslo dadı qalıb. Elə bilirlər ki, dövr yenə həmin dövrdür, xalqı pafosla və yalan vədlərlə aldatmaq olar. Halbuki bir az ayıq adam reallığı görər və siyasi romantikadan uzaq durar. İndi ölkədə sabitlik var, inkişaf var və yetərli qədər uğurlar var. İnsanlar bu tərəqqini gördükləri halda, müxalifətlə niyə həmfikir olsunlar ki? Cənab Prezident İlham Əliyev yüz əziyyətin hesabına Azərbaycanın adını bu qədər yüksəklərə qaldırıb. İndi Azərbaycan xalqı bu qədər cəfakeş Prezidenti varkən, Ə.Kərimli kimi avantüristin mitinqinə gələrmi, qatılarmı? Gəlməz və qatılmaz, əlbəttə. Eləsinlər mitinqlərini. Edib, bir az da rəzil olsunlar. Allahın bədbəxt bəndələridir onlar.

**GÜLYANƏ**

# Əli Kərimli - həyasız və abırsızdır, neyləsin?



**RƏFİQƏ**

***Belə bir deyim var: "dinsizin öhdəsindən imansız gələr". Elə bu abırsızlıqla yenə də siyasi gündəmdə qalmaqdan ötrü var-gəl edən, çıxış yolu tapmayanda isə mitinq keçirəcəklərini deyən satqın Əli Kərimli, quyruq bulayan, yaşına-saqqalına qiymət verməyən oyunbaz Cəmil Həsənli olan AXCP-"Milli Şura" cütlüyünün "liderləri" bu dəfə də köhnə vərdişlərini işə salıblar. Ardıcıl olaraq keçirdikləri mitinqlərin fiaskoya uğramasından abır-həya çəkməyən Ə.Kərimli-C.Həsənli cütlüyü yenidən "möhtəşəm mitinq" keçirəcəklərini deyir. Əslində, bu, təəccüb də doğurmur. Çünki sadəcə, siyasi arenadan tamamilə qeyb olmamaqdan ötrü, onların bir çıxış yolları var ki, bu da seçki ərəfəsi mitinq və yürüş planlaşdırmalarıdır. Ancaq keçirilən mitinqlərin səmərə verməməsi, vəziyyəti bir az da gərginləşdirib.***

### Əli Kərimlinin Cəmil Həsənli kartı

AXCP sədri Ə.Kərimlinin dirijorluq çubuğu ilə fəaliyyət göstərən və partiyanın filialı təsirini bağışlayan "Milli Şura"nın mitinq keçirmək iddiası, ardıcıl olaraq, fiaskoya uğurasa da, yenə də mitinq keçirmək iddialarından əl çəkmirlər. Lakin anlamırlar ki, arzuedilən mitinqin də ötən mitinqlərdən hər hansı bir üstünlük təşkil edəcəyini gözləmək olmaz. Elektorat, tərəfdaş və sosial baza qıtlığını ötən mitinqlərində sübuta yetirən "Milli Şura" rəhbərliyi də, əlbəttə ki, bütün bunları yaxşı bilir. Sadəcə, AXCP sədri əlində saxladığı C.Həsənli kartından öz məqsədləri üçün yararlanması istiqamətində Qərb siyasi dairələrinin və həmin dairələr sayəsində ona pul ötürən erməni lobbisinin göstərişlərini reallaşdırmağa çalışır.

Ən maraqlısı isə, həyasızcasına və utanmadan seçkiərəfəsi kütləvi aksiyalar keçirməyi planlaşdırdıqlarını deyirlər. Bu sözü 24 ildən çoxdur ki, deyirlər. Bir də hansı kütlə və ya hansı kütləvilikdən söhbət gedir? Bir müddət öncə keçirmiş olduqları aksiyaların fiaskosunu, rəzalətini nə tez unutdular? Axı müxalifət qüvvələrinin bir tək təşkilatları deyil, həm də ideyaları, fikirləri, məramları da pərakəndədir. Yaxşı bəs bunu kim aradan qaldıracaq? Buyurub keçirsinlər aksiyalarını, keçirdilər. Keçirdilər, gücü çənəyə versələr də, o ağızdan çıxanı eşidən qulaq tapılmadı. Ə.Kərimlinin 300 nəfərlik insan toplusuna "mənim xalqım" - deyə səslənişi, C.Həsənlinin sanki bir milyonluq mitinqdə nitq söyləyirmiş kimi havaya girib kükrəməsi, gerçək bir fiaskonun, eyni zamanda, psixi pozğunluğun nəticəsi kimi dəyərləndirilməlidir. Təşkil olunan aksiyaya - üstəgəl icazəli ikən - 250 nəfərin yığılmasını, tində "Patron" tumu çırtlamasını "möhtəşəm mitinq" adı ilə manşetlərə daşıya bilsin. Bunu ancaq Ə.Kərimli kimi avantürist edə bilərdi ki, elədi də. Bu da abırsızlığın son həddidir. Çünki Ə.Kərimli "atlar ölüb, itlərin bayramıdır" - fəlsəfəsinə qapılmağı sevir, həmin fəlsəfənin yaratdığı mənzərədən kef almağı bacarır. O da bu cür həm xəstədir, həm də həyasız və abırsızdır, neyləsin?




# Ünsiyyət məhdudiyyətli gənclər üçün "Təlim məktəbi" layihəsi davam edir

"Nar" və "Uğur Akademiyası" tərəfindən təşkil edilən bölgələrdə "Təlim məktəbi" layihəsinin ikinci mərhələsi start götürdü. Göygöldə həyata keçirilən layihə təcrübəli mütəxəssislər və peşəkar psixoloqun iştirakı ilə reallaşdırılır. Təlim iştirakçılarının smartfon təmiri, dərzilik və bərbərlik kurslarında iştirak etməsi nəzərdə tutulub. Bölgələrdə bir ilk olaraq həyata keçirilən layihə rayon icra hakimiyyəti və Ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinin regional mərkəzi tərəfindən dəstəklənir.

"Təlim məktəbi" layihəsi "Nar" tərəfindən reallaşdırılan və fiziki məhdudiyyətli gənclərin cəmiyyətə inteqrasiyası üçün nəzərdə tutulan bir layihədir. Layihə çərçivəsində Göygöl və ətraf bölgələrdən olan 20-dən çox yerli sakinin iki həftə boyunca üç istiqamət üzrə peşə təlimi alması nəzərdə tutulub. Bölgələrdə "Təlim məktəbi" layihəsinin davamlı olaraq reallaşdırılması planlaşdırılıb. "Təlim məktəbi" layihəsi ilk olaraq Bakıda start götürüb və ümumilikdə 75 nəfər tələbənin iştirakı ilə həyata keçirilib. "Nar"-ın təşəbbüsü ilə təmənnasız həyata keçirilən layihənin məqsədi ünsiyyət məhdudiyyətli gənclərin bilik və bacarıqlarını artırmaq, onların gələcək karyeralarına töhfə vermək və mənəvi dəstək göstərməklə cəmiyyətə inteqrasiya etdirməkdir. Təşkilatçılar "Təlim məktəbi"ni bitirən gəncləri diqqət mərkəzində saxlayaraq onların işlə təmin olunmasına yardımçı olurlar. Layihənin bölgələrdə həyata keçirilməsinə Zaqatala rayonunda start verilib.

Artıq 3 ildən çoxdur ki, "Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində fiziki məhdudiyyətli Azərbaycan vətəndaşlarının cəmiyyətə inteqrasiyası istiqamətində müxtəlif addımlar atır. Yerli biznes mühiti üçün nümunə olaraq qeyd etmək lazımdır ki, 11 nəfər ünsiyyət məhdudiyyətli şəxs hazırda "Nar"-ın əməkdaşı olaraq fəaliyyət göstərir. Mobil operator bu qəbildən olan sosial layihələri genişləndirməyi və bənzər təşəbbüslərə dəstəyi davam etdirməyi nəzərdə tutur. "Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Azərbaycanda musiqi mədəniyyətinin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu

Ulu Öndər Heydər Əliyev musiqi mədəniyyətinin inkişafına böyük qayğı ilə yanaşırdı. Bu qayğı aşağıdakılardan ibarət idi:

- Bəstəkarların və müğənnilərin yubileylərini keçirir, onları mükafatlandırırdı;
- Musiqi qurumlarının yubileylərini keçirirdi;
- Heydər Əliyev Azərbaycan musiqi mədəniyyətini bütün dünyada şöhrətləndirdi;
- Üzeyir Hacıbəyovun Ev-Muzeyi açıldı;
- S.İ.Hacıbəyov və Ə.B.Bədəlbəylinin xatirələri əbədiləşdirildi;
- Ü.Hacıbəyov və M.Maqomayevin 95 illik yubileyi keçirildi;
- Bülbülün Xatirə Muzeyi açıldı;
- M.Maqomayevə SSRİ Xalq Artisti fəxri adı verildi.

M.Qasımlı yazır: “Heydər Əliyev Qara Qarayevə xüsusi qayğı göstərir və ona böyük ehtiramla yanaşırdı. O, 1977-ci il noyabr ayının 29-da 505 №-li məxfi məktub yazaraq, Q.Qarayevə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilməsi barədə müraciət etdi. Məktubda Qara Qarayev əsərlərində yüksək xəlqiliyin olduğu xüsusi vurğulanırdı. 1978-ci ildə Qara Qarayevin 60 illik yubileyi təntənə ilə qeyd edildi. Ona Lenin ordeni və Sosialist Əməyi Qəhrəmanı fəxri adı verildi.

1980-ci il mart ayının 19-da keçirilən MK Bürosunun iclasında Rəşid Behbudova Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilməsi barədə Sov.İKP MK-ya müraciət etmək haqqında qərar qəbul olundu. Elə həmin iclasda görkəmli müğənni Zeynəb Xanlarovaya Azərbaycanın Xalq Artisti fəxri adı verilməsi qərara alındı. Bu qərarlar yerinə yetirildi.

Heydər Əliyev görkəmli dirijor Niyaziyə qayğı göstərirdi. O, hələ gənc yaşlarından Niyazini tanıyır və dostluq edirdi. Hakimiyyətə gəldikdən sonra Niyazi ilə daha sıx əlaqə saxlayaraq, onun yaradıcılığı üçün yaxşı şərait yaratmışdı. Heydər Əliyev hesab edirdi ki, Niyazi Azərbaycan milli musiqisini zənginləşdirən, dünyada tanıdan bir sənətkardır. Azərbaycan bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxmasında və təqdim olunmasında Niyazinin böyük xidmətləri var idi. Heydər Əliyev Niyazi sənətinə pərəstiş edir, yaradıcılığının çiçəklənməsi üçün əlindən gələni əsirgəmirdi. O, Niyazini qeyri-adi insan və böyük dirijor olaraq dəyərləndirirdi. Heydər Əliyevin tövsiyələri əsasında Türkiyə incəsənət xadimləri ilə əlaqələr saxlayan Niyazi böyük türk bəstəkarı Adnan Sayqunun “Koroğlu” operasını səhnəyə qoymuşdu, bu və ya başqa işlərlə bağlı dəfələrlə Türkiyədə səfərdə olmuşdu. Niyazini zəmanəsinin görkəmli driioru hesab edən Heydər Əliyev onun dövlətin yüksək orden və medalları ilə təltif edilməsinə səylər edirdi. O, Sov.İKP MK-ya 1980-ci il mart ayının 15-də məktub yazaraq, Niyaziyə Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi məsələsini qaldırdı. Lakin Sov.İKP MK-da ona demişdilər ki, ölkədə bəstəkarlardan, yazıçı və şairlərdən Sosialist Əməyi Qəhrəmanı var. Ancaq dirijorlardan heç kim bu adı almayıb. Necə ola bilər ki, Rusiyanın, Ukraynanın və başqa böyük millətlərin nümayəndələrindən, Moskvanın simfonik orkestrlərinin dirijorlarından heç kim bu adı almasın, amma bu ad ilk olaraq, Niyaziyə verilsin. Bu cavabdan heyrətlənən Heydər Əliyev Sovet dövlət rəhbərlərinə bildirmişdi ki, əgər indiyədək bu adı kimsəyə verməyibsinizsə, bu, sizin bəlkə də səhvinizdir, öz işinizdir, özünüz bilərsiniz, amma Niyazi bu ada layiqdir. Bəlkə də təsadüfi deyil ki, indiyədək dirijorlardan heç kim bu adı almağa təqdim edilməyib. Həmin vaxt Heydər Əliyev bu istəyinə çata bilməsə də, ruhdan düşmədi və inadından dönmədi. MK Bürosunun 1982-ci il 10 aprel tarixli iclasında Niyazinin anadan olmasının 70 illiyinin keçirilməsi barədə qərar qəbul olundu. Həmin il iyul ayının 22-də Heydər Əliyev təkrarən məktub yazaraq, Niyaziyə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilməsini xahiş etdi. Heydər Əliyev bu dəfə öz istəyinə çatdı. Niyazi bütün ölkədə Sosialist Əməyi Qəhrəmanı fəxri adını alan ilk dirijor oldu. Bu adı türk və müsəlman dirijorunun alması azərbaycanlıların özünə inam hissini gücləndirir, ölkə xalqları içərisində Azərbaycan xalqının və yaratdığı mədəniyyətin nüfuzunu artırır, respublikada incəsənətin inkişafı üçün stimul yaradırdı. Niyaziyə belə yüksək adın verilməsi Azərbaycan musiqi sənəti tarixində möhtəşəm hadisə idi.

Niyazinin anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq yubiley komissiyası yaradıldı və tədbirlər yüksək səviyyədə keçirildi.

Heydər Əliyev Niyazini Sovet sisteminin cəza tədbirlərindən də xilas etmişdi. Bir dəfə Niyazi Türkiyədə olanda, Sovet rezidenturası mərkəzə məlumat ötürür ki, guya dirijor türk hakim dairələrindən siyasi sığınacaq almaq istəyir. Sovet Səfirliyi onu həyat yoldaşı Həcər xanımla birgə təcili olaraq SSRİ-yə geri göndərmək istəyirdi. Bu barədə məlumatı alan kimi Heydər Əliyev DTK sədri Y.Andropovla telefonla danışaraq problemi dərhal həll edir və beləliklə, Niyaziyə atılan böhtan və yalan ayaq tutsa da yeriməkdən qalır.

MK Bürosunun 1982-ci il 10 aprel tarixli iclasında bəstəkar Rauf Hacıyevin anadan olmasının 60 illiyinin qeyd edilməsi barədə qərar qəbul olundu.

Heydər Əliyevin Sədrliyi ilə MK Bürosu 1982-ci il 19 iyul tarixli iclasında Fikrət Əmirovun anadan olmasının 60 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul etdi. Bəstəkarın yubiley tədbirləri keçirildi. Bu toplantıda Azərbaycan rəhbərinin iştirakı bəsəkarlara diqqət və qayğının nümunəsi idi.

Heydər Əliyev bəstəkarları rejimin təzyiqlərindən qoruyurdu. Onun dövründə Azərbaycan bəstəkarlıq sənəti özünün qızıl dövrünü yaşayırdı. Dünyanı heyran qoyan möhtəşəm əsərlər, məhz həmin illərdə yarandı. Azərbaycan bəstəkarları tam sərbəst şəkildə yaşayıb-yaradırdılar”.

Heydər Əliyev bir çox istedadlı bəstəkarlara qayğı göstərir, musiqi və təhsil ocaqlarını inkişaf etdirirdi. Azərbaycanı dünyada tanıdan dahi Ü.Hacıbəyov və M.Maqomayev haqqında Heydər Əliyev deyirdi: “Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovun M.Maqomayevlə və bir neçə silahdaşı ilə birlikdə uzun müddət çox böyük çətinlikləri aradan qaldırmağa və güclü müqaviməti qırmağa məcbur olduğunu xatırlayanda musiqi mədəniyyətimizin bir neçə onillik ərzində keçdiyi diqqətəlayiq yol gözümüzün qabağında, xüsusilə, qabarıq şəkildə canlanır.

Bu gün Azərbaycan professional musiqi banilərinin, ilk növbədə, Üzeyir Hacıbəyovun fəaliyyətini böyük minnətdarlıq və iftixarla xatırlayırıq. Onlar xalqa, nəinki gözəl musiqi əsərləri bəxş etmiş, həm də Azərbaycanda bəstəkarlıq məktəbinin təməlini qoymuş və bu məktəbi yaratmışlar”.

M.Qasımlı yazır: “Heydər Əliyev Azərbaycan bəstəkarlarının ölkə və dünya miqyasında tanıtdırılması istiqamətində ciddi səylər edərək məqsədinə nail olurdu. Azərbaycan bəstəkarları SSRİ bəstəkarlarının qurultaylarında Rəyasət Heyətində əyləşir və əsas məruzəçilərdən olurdular. Onların məruzələrində Azərbaycan milli musiqisinə dərin qiymət verilirdi. Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri Qara Qarayev SSRİ Bəstəkarlar İttifaqının V qurultayındakı nitqində deyirdi: “Azərbaycanın müasir bəstəkarlıq məktəbinin kökləri... Azərbaycanın böyük klassik bəstəkarı, alim və pedaqoqu, Azərbaycanda professional bəstəkarlıq sənətinin banisi Üzeyir Hacıbəyovun irsi və ənənələri ilə bağlıdır”.

Heydər Əliyev Azərbaycan musiqi mədəniyyətini təbliğ etmək məqsədilə dünyanın ən böyük şəhərində görkəmli bəstəkarlarımızın əsərlərinin səsləndirilməsinə nail olurdu:

- Musiqi folklorunu və muğam irsini dirçəldirdi;
- Muğam ifaçılığına xüsusi diqqət verirdi;
- Xalq musiqisini dirçəldir və təbliğ edirdi.

Onun, bilavasitə qayğısı nəticəsində ölkədə yeganə olan Mahnı Teatrını SSRİ Xalq Artisti Rəşid Behbudov yaratdı. Azərbaycan milli xoreoqrafiyası məşhurlaşdı.

Heydər Əliyev deyirdi: “Respublikanın professional musiqiçiləri... xalq bədii kollektivlərinin ustalıq səviyyəsinin yüksəlməsinə qayğı göstərməlidirlər”.

Heydər Əliyev Azərbaycan musiqisinin dünya miqyasında tanıdılması yönündə böyük işlər gördü. Onun hakimiyyəti illərində Azərbaycan mədəniyyəti ölkə sərhədlərini sürətlə aşaraq dünya səviyyəsində daha geniş miqyasda çıxırdı. Buna dair yüzlərlə misal göstərmək olar. 1973-cü ilin payızında SSRİ Xalq Artisti Rəşid Behbudovun rəhbərliyi altında Mahnı Teatrı Latın Amerikası ölkələrində uğurla konsertlər verdi. Bu barədə tanınmış tənqidçi İlham Rəhimli yazırdı: “Rəşid Behbudov oxuyanda, günəşli Azərbaycan onun məlahətli səsi ilə sehrlənmiş nağıla çevrilir. Xalqımızın əzəməti, Xəzərin coşqunluğu, dağ çeşmələrinin saflığı, laləli düzlərin ətri, bərəkətli çöllərin, meyvəli bağların şirinliyi mahnılarla könüllərə hopur. Rəşid Behbudov Azərbaycanı tanıdıb. Səni tərənnüm edirəm, Azərbaycan! Qüdrətli sənəti, odlu-alovlu mahnıları ilə Azərbaycanı sönməz məşələ çevirib”.

70-80-ci illərdə Azərbaycan mədəniyyəti və incəsənətinin tərəqqisini, hətta xarici ölkələrin siyasətçiləri, alimləri, diplomatları və jurnalistləri də etiraf edirdilər. SSRİ-də akkreditə olunmuş xarici olkələrin səfirləri Azərbaycana səfər edərək, onun mədəniyyəti və incəsənəti ilə tanış olur, təəssüratlarını bölüşürdülər. Məsələn, 1971-ci ildə Azərbaycanda səfərdə olan Avstriyanın Moskvadakı səfiri Hayirix Haymerle öz təəssüratını belə ifadə edirdi: “Azərbaycan xalqının incəsənəti ilə tanışlıq mənə daha çox təsir bağışladı. Onun incəsənəti dərin milli təməli ilə, zəngin ənənələri və eyni zamanda, son dərəcə müasirliyi ilə fərqlənir”. Belə yüksək qiymət onlarla digər xarici qonağın müsahibələrində də əks olunmuşdu.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Heydər Əliyev Azərbaycan musiqisinin dünya miqyasında tanıdılması yönündə böyük işlər görürdü. Onun hakimiyyəti illərində Azərbaycan mədəniyyəti ölkə sərhədlərini sürətlə aşaraq dünya səviyyəsində daha geniş miqyasda çıxırdı. Buna dair yüzlərlə misal göstərmək olar. 1973-cü ilın payızında SSRİ Xalq Artisti Rəşid Behbudovun rəhbərliyi altında Mahnı Teatrı Latın Amerikası ölkələrində uğurla konsertlər verdi.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti çərçivəsində hazırlanıb*

## Dubayda Wi-Fi və USB portları ilə təchiz edilmiş ilk “ağıllı” köşklər qoyulub



“Arabian Business” nəşri Dubay polisinin rəsmi məlumatına istinadla bildirir ki, Əmirliyin bəzi rayonlarındakı yerli polis məntəqələrinin yaxınlığında Wi-Fi və USB portları ilə təchiz edilmiş ilk “ağıllı” köşklər qoyulub.

AZƏRTAC xəbər verir ki, burada hər bir skamya günəş batareyalarından qidalandırılan iki cərəyandoldurma stansiyası və bir 4G marşrutizatoru ilə təchiz olunub. Bundan əlavə, hava çox qızmar olduqda bu skamyaların oturacaqları avtomatik olaraq soyudulur, qaranlıqda isə işıqlanır. Köşklərdə polis haqqında və hava şəraiti barədə məlumat almaq mümkün olacaq.

Dubayda həyata keçirilən “ağıllı şəhər” təşəbbüsü çərçivəsində Əmirliyin bütün ərazisində polis məntəqələrinin yaxınlığında belə köşklərin sayı artırılacaq.

## Hamilələrin vitamin qəbul etməsi doğulacaq körpədə autizm riskini azaldır

ABŞ mütəxəssislərinin fikrincə hamilə qadınların vitamin qəbul etməsi doğulacaq uşaqda autizm riskini azaldır. AZƏRTAC “vistanews.ru” saytına istinadla xəbər verir ki, bu istiqamətdə aparılan tədqiqatlarda 270 hamilə qadın və onların uşaqları iştirak ediblər. Araşdırmalardan bəlli olub ki, hamiləlik zamanı vitamin qəbulu, bu qadınların uşaqlarında əqli inkişafın geriləməsi ilə müşahidə olunan autizmin inkişaf etməsinin qarşısını alıb. Onların nəticələri 0,26 faiz təşkil edib.

Bu tədqiqatlara qədər alimlər D vitamini çatmazlığı olan hamilələrin uşaqlarında müəyyən problemləri olacağında həmfikir idilər. Onların fikrincə belə uşaqlarda bir müddət sonra autizm əlamətləri müşahidə edilə bilər. Mütəxəssislər bildiriblər ki, autizmin yaranmasında genetik faktorların əsas rol oynamasına baxmayaraq, xəstəliyin inkişaf etməsi üçün bir çox müxtəlif amillərin də olması vacibdir.

## Fındıq allergiyasına diqqət

Fındıq allergiyası ən çox təsadüf olunan qida allergiyalarının bir növüdür. AZƏRTAC Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasına istinadən xəbər verir ki, aparılan tədqiqatların nəticəsində uşaqların təxminən doqquz faizində fındıq allergiyası aşkar edilib. Allergiya əlamətləri fındıq yedikdən 2 saat sonra ortaya çıxır. Bu əlamətlər allergik şoka qədər irəliləyə bilər.

Ailə anamnezində allergiya olduqda, uşağa ən az 3 yaşına qədər fındıq vermək olmaz. Ailə anamnezində allergiya inkar edildikdə isə 5 yaşa qədər nəfəs yollarında tıxanıqlığa səbəb olma ehtimalına qarşı uşaq fındıq yeyərkən nəzarət altında tutulmalıdır.

Uşağınız fındıq yedikdən sonra allergik reaksiya müşahidə edildiyi təqdirdə təcili həkimə müraciət etmək lazımdır.

## Əliyar Ağayev “Vardar”-”Real Sosyedad” oyununu idarə edəcək

Futbol üzrə UEFA Avropa Liqasının “L” qrupunda keçiriləcək “Vardar” (Makedoniya) - “Real Sosyedad” (İspaniya) oyununu azərbaycanlı hakimlər briqadası idarə edəcək. AZƏRTAC xəbər verir ki, oktyabrın 19-da keçiriləcək oyunun baş hakimi FIFA referisi Əliyar Ağayev olacaq.

Ona həmyerliləri Zeynal Zeynalov və Rza Məmmədov kömək edəcəklər. Dördüncü hakim funksiyasını Mübariz Haşımov yerinə yetirəcək. Əlavə köməkçi hakimlər isə Rəhim Həsənov və Orxan Məmmədov olacaqlar.

## Azərbaycan samboçusu Serbiyada dünya çempionu olub



Serbiyanın Novi-Sad şəhərində yeniyetmələr və gənclər arasında sambo üzrə dünya birinciliyi başa çatıb. AZƏRTAC xəbər verir ki, yeniyetmələrin yarışında millimizin üzvü İrena Xubulova (52 kq) bütün rəqiblərinə qalib gələrək dünya çempionu adını qazanıb. Digər samboçularımız Yaşar Nəcəfov (60 kq) və Teymur Allahverdiyev (70 kq) isə mundialın bürünc medalına sahib olublar. Millimiz baş məşqçi Yaqub Abdullayevin rəhbərliyi altında mübarizə aparıb.



## “Neftçi” səfərdə rəqibini darmadağın etdi!

Futbol üzrəTopaz Premyer Liqada 8-ci tura yekun vurulub. Belə ki, son oyun günündə bir görüş keçirilib. Bakının “Neftçi” futbol klubu, səfərdə debütant “Səbail”in qonağı olub. “ağ-qaralar”ın ərazi üstünlüyü ilə keçirilən qarşılaşma, böyük maraqla izlənilib.İlk dövrədə bu rəqibinə uduzan “ağ-qaralar” bu dəfə 4:0 hesabı ilə qalib gəlib.

## Robert Prosineçki: “AFFA ilə məsələni həll etməliyəm”



Futbol üzrə milli komandamızın baş məşqçisi Robert Prosineçki açıqlama verib. SİA-nın məlumatına görə, mütəxəssis Bosniya və Herseqovina tərəfi ilə danışıqlara başlamağa hazır olduğunu deyib: “Eşitmişəm ki, Sloveniya və Avstriyada mənimlə maraqlanırlar. Amma Bosniya və Herseqovinadan heç kim mənimlə əlaqə saxlamayıb. Bir neçə gündən sonra Azərbaycanda olacağam. Yerli futbol assosiasiyası (AFFA) ilə məsələni həll etməliyəm. Bundan sonra Bosniya və Herseqovina Futbol Federasiyası ilə danışıqlara hazıram. Bu işlə ciddi məşğul olacağam”.

Qeyd edək ki, Prosineçkinin millimizlə müqaviləsi dekabrın 4-ü başa çatır. O, 2014-cü ildən yığmamızı çalışdırır. Prosineçkinin rəhbərliyi altında millimiz DÇ-2018-in seçmə mərhələsində 10 oyuna 10 xal toplayıb.

## “Qarabağ”ın ispaniyalı futbolçuları “AS” qəzetinə müsahibə veriblər




UEFA Çempionlar Liqasının qrup mərhələsi çərçivəsində keçiriləcək “Qarabağ”-”Atletiko Madrid” oyunu ərəfəsində Azərbaycan təmsilçisinin heyətində çıxış edən ispaniyalı futbolçular Dani Kintana və Miçel İspaniyanın nüfuzlu idman nəşri olan “AS” qəzetinə müsahibə veriblər.

“Atletiko Madrid”in səfəri Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır” sərlövhəli yazıda “Qarabağ” komandasının ispaniyalı futbolçuları Bakıda keçiriləcək oyuna azarkeşlərin böyük marağından, komandamızın mübarizəyə ciddi hazırlaşmasından bəhs ediblər.

“AS” qəzetinin jurnalisti F.X.Diasın suallarını cavablandıran “Qarabağ”ın yarımmüdafiəçisi Miçel deyib: “Bu, azərbaycanlı futbol azarkeşləri üçün çox maraqlı oyundur və stadiona çoxlu sayda insanın gəlməsi gözlənilir. Bakı Olimpiya Stadionu yeni arenadır, burada ölkənin milli komandası öz oyunlarını keçirir. AFFA bizə UEFA Çempionlar Liqasındakı oyunlarımızı burada keçirməyə imkan yaradıb. Bu stadion 70 min azarkeş tutur və əminəm ki, arena “Atletiko Madrid” futbolçularının xoşuna gələcək”.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**